RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 116 (9571) 4 iyun 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Cari ildə Azərbaycanın COP29-a, İtaliyanın isə G7-yə sədrliyi əməkdaşlığımız üçün yeni imkanlar yaradır

### İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya



Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan-İtaliya strateji tərəfdaşlıq münasibətləri məmnunluq doğurur. Siyasi, ticari-iqtisadi, enerji, müdafiə, humanitar və digər sahələrdə əlaqələrimiz çoxtərəfli qaydada birgə fəaliyyətimiz ilə müşayiət olunur. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda uğurlu işbirliyimiz Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Azərbaycan ilə İtaliya arasında müxtəlif sahələri əhatə edən və gündən-günə yeni məzmunla zənginləşən qarşılıqlı faydalı əməkdaşlığın yüksək səviyyəsini vurğulamaq istərdim. Azərbaycanın mühüm iqtisadi tərəfdaşlarından olan ölkənizin şirkətləri Azərbaycanın iqtisadi həyatında fəal iştirak edirlər. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərində İtaliya şirkətlərinin səmərəli fəaliyyəti təqdirəlayiqdir. Bütün bunlar tərəfdaşlığımızın yüksək səviyyəsindən, mövcud əməkdaşlığımızı daha da şaxələndirmək əzmimizdən xəbər verir. Biz bu əməkdaşlığı daim diqqət mərkəzində saxlayır və dəstəkləyirik.

Ölkələrimizi birləşdirən sıx humanitar əlaqələri, o cümlədən elm və təhsil sahəsində səmərəli işbirliyimizi xüsusi qeyd etmək istərdim. Azərbaycanın aparıcı ali təhsil müəssisələrindən biri olan ADA Universiteti ilə İtaliyanın qabaqcıl universitetləri arasında uğurlu əməkdaşlıq bunun bariz nümunəsidir.

Heç şübhəsiz ki, mövcud potensialdan və yeni imkanlardan istifadə edərək çoxşaxəli əlaqələrimizi daha da genişləndirə, qeyri-neft sektorunda əməkdaşlığımızı əhəmiyyətli dərəcədə artıra bilərik. Cari ildə Azərbaycanın COP29-a, İtaliyanın isə G7-yə sədrliyi əməkdaşlığımız üçün yeni imkanlar yaradır.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-İtaliya dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində birgə fəaliyyətimizin dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına daim rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2024-cü*

## Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfələr verir

### Prezident İlham Əliyev Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunu qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Fatih Birolun bundan əvvəlki görüşü məmnunluqla xatırlandı.

Görüşdə COP29-a hazırlıqla bağlı Azərbaycanda görülən işlər barədə fikir mübadiləsi aparıldı. Ölkəmizlə Beynəlxalq Enerji Agentliyi arasında səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluq bildirildi. Azərbaycanda "yaşıl enerji"nin inkişafı istiqamətində atılan uğurlu addımlar qeyd edildi, ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyinə verdiyi töhfə vurğulandı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri müzakirə olundu.

## Korrupsiyalaşmış Avropa Parlamenti obyektiv qərar qəbul edə bilməz

Rüşvət və korrupsiya qalmaqallarında erməni lobbisinin də əli var. Brüsseldə oturan erməni iş adamı Kaspar Karampetyanın Avropa Parlamentindəki korrupsiya və rüşvət mexanizmlərində mühüm rol oynadığı artıq hamıya məlumdur. Erməni mafiyasının Belçikadakı əsas siması hesab olunan Kaspar Karampetyan eyni vaxtda Yunanıstan, Ermənistan və Lüksemburq vətəndaşıdır. Bu şəxs öz biznesini qanunsuz almaz qaçaqçılığı da daxil olmaqla, müxtəlif qeyri-leqal biznes fəaliyyətlərinin hesabına qurub. Adı daha çox mafiya əməllərində hallanan Karampetyan Ermənistanın və özünün biznes maraqlarının müdafiəsi üçün avropalı məmur və deputatlara bu vaxtacan milyonlarla rüşvət paylayıb.

2023-cü ilin əvvəlində isə Avropa Parlamenti ilə bağlı daha bir fakt üzə çıxdı. Məlum oldu ki, Avropa Parlamentinin spikerlərindən biri bahalı hotellərdə, dəbdəbəli restoranlarda keçirdiyi vaxt, təyyarələrdə biznes-salonlarda uçuşlar, şou proqramlarına və idman yarışlarına VIP-lojalarda tamaşa etmək xərclərinin kənar şəxslər tərəfindən ödənilməsi barədə hesabat təqdim etməyib. Almaniya mediasının məlumatında bildirilirdi ki, AP rəsmisi olan Roberta Metsola əri ilə birlikdə Fransanın təmtəraqlı hotelində keçirdiyi gecənin xərcinin Şərab İstehsalçıları Assosiasiyası tərəfindən ödənilməsi haqda məlumatı ictimaiyyətdən, spikeri olduğu qurumdan gizləyib.

→ 8

## Azərbaycan minatəmizləmə təcrübəsini eyni problemdən əziyyət çəkən ölkələrlə bölüşməyə hazırdır

Dövlət başçısı İlham Əliyev müraciətində vurğulayıb ki, minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törədir. Bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 140 min hektara yaxın sahənin 119 min 946 mina və partlamamış hərbi sursatlardan təmizləndiyini, lakin minalanmış ərazilərin bundan daha geniş olduğunu qeyd edən Prezident İlham Əliyev, minaları yerləşdirməyin asan, onları təmizləməyin isə qat-qat çətin və mürəkkəb proses olduğunu vurğuladı. Azərbaycanın bu məqsədlə qısa müddət ərzində bütün gücünü səfərbər edərək dünyada tətbiq olunan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etdiyini, minatəmizləmə sahəsində səmərəliliyin artırılması üçün tərəfimizdən davamlı şəkildə müvafiq işlər görüldüyünü və hazırda imkanlarımızın əvvəlki illərlə müqayisədə xeyli artdığını bildirdi.

→ 7



## Ənənə davam edir

## İlham Əliyevin sayəsində Bakı Enerji Həftəsi mühüm beynəlxalq tədbirə çevrilib

**Bu gün Azərbaycanın paytaxtında Bakı Enerji Həftəsi öz işinə başlayır. Üç gün davam edərək iyunun 6-da tamamlanacaq Bakı Enerji Həftəsi üç mötəbər tədbiri birləşdirəcək. Bunlar 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil&Gas", 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 29-cu Bakı Enerji Forumudur.**

"Caspian Oil&Gas" və "Caspian Power" sərgiləri Bakı Ekspo Mərkəzində, forum isə ekoloji konseptdə inşa edilmiş Bakı Konqres Mərkəzində təşkil edilib. Keçirilməsi ənənəyə çevrilmiş Bakı Enerji Həftəsi dünyanın enerji sənayesi sahəsinin liderlərini bir araya gətirir və bununla da diqqəti Azərbaycanın üzərinə cəmləşdirir. Prezident İlham Əliyevin hər il "həftə"nin açılış mərasimində iştirak etməsi bu tədbirin yüksək statusunu bir daha təsdiqləyir.

Bakı Enerji Həftəsinin özəyini, bünövrəsini təşkil edən neft-qaz sərgisi ilk dəfə 30 il əvvəl keçirilib. O vaxt Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli"(AÇG) yataqlarının tammiqyaslı işlənməsi üçün sazişin imzalanmasına bir neçə ay qalırdı. Danışıqlar hələ davam edirdi. Bu şəraitdə Ümummilli Lider Heydər Əliyev elə bir tədbirin keçirilməsinin təşəbbüskarı və təşkilatçısı oldu ki, o, sonralar "Əsrin müqaviləsi" adını almış həmin qlobal sazişin imzalanmasına dəstək verdi, yol açdı.

→ 6

## Azərbaycanın qətiyyəti sülh üçün tarixi şəraiti yetişdirib

Azərbaycanın siyasi, hərbi, diplomatik sahədə qazandığı ardıcıl qələbələr sayəsində nəhayət ki, onilliklərboyu münaqişə meydanına çevrilmiş Cənubi Qafqazda davamlı sülh üçün tarixi şərait yetişib. Müharibə meydanında qazandığı zəfərdən dərhal sonra Ermənistana sülh təklif etməklə bölgədə barış tərəfdarı olduğunu nümayiş etdirən Azərbaycan ötən müddətdə bu istiqamətdə əməli işlər həyata keçirib. Dövlətimiz regionda maraqları olan bəzi xarici qüvvələrin siyasi, diplomatik təxribatlarına, Ermənistanı silahlandıraraq revanşa qızışdırmalarına baxmayaraq, iki ölkə arasında normallaşma əldə edilməsi üçün qətiyyətli siyasət yürüdüb.

Bakı normallaşma ilə bağlı qərarlı olduğunu ortaya qoyaraq, həm də xarici güclərə güvənərək sülh prosesindən yayınmağa çalışan İrəvana başa salıb ki, sülhdən ayrı çıxış yolu yoxdur.

→ 9

## Makronun uğursuz siyasəti

### Bu, prezidentin partiyasına dəstəyi azaldıb

İyunun 9-da Avropa Parlamentinə seçkilər keçiriləcək. Onun nəticələri Avropanın adi siyasi mənzərəsini dəyişə bilər. Fransada ifrat sağçıların hazırkı prezidenti dəstəkləyən liberal qüvvələr üçün ciddi problemlər yaradacağı gözlənilir.

May ayında keçirilən sorğular Makronun "İntibah" partiyası üçün çox məyusedici proqnozlar verir. Hesablamalara görə, Marin Le Penin ifrat sağçı Milli Birlik (MB) partiyası qarşıdan gələn seçkilərdə 31 faiz səslə liderdir. Eyni zamanda fransız sağçılar makronistləri iki dəfədən çox fərqlə qabaqlayırlar. Fransa əhalisinin cəmi 15 faizi prezidentyönlü "İntibah" partiyasına səs verməyə hazırlaşır. Lakin mövsümün əsl siyasi "dirçəlişi" 3-cü yeri tutan sosialistlərin gözlənilməz qayıdışı olub. Seçicilərin 14 faizi Rafael Qlüksmannın rəhbərlik etdiyi Sosialist Partiyasının (PS - Place Publique) siyahısına səs verməyə hazırdır. Demək olar ki, rəqəm indiki prezidentin partiyası ilə eynidir. Eyni zamanda ekspertlər qeyd edirlər ki, Makronun partiyasına dəstək gələcəkdə daha da azala bilər. Təkcə aprel ayında bir sorğuya əsasən, prezident partiyasını dəstəkləyənlərin sayı ümumi seçici siyahısında 3,5 faiz azalıb.

Nə baş verir? Hökumət fransızları uğurlarına inandırmağa çalışarkən Makronun partiyasının niyə belə aşağı reytinqi var? Axı, hökumətin məlumatlarına görə, Fransa iqtisadi cəhətdən Almaniya, İtaliya və Böyük Britaniyanı qabaqlayır?

Ancaq fakt budur ki, sıravi fransalı daimi böhran vəziyyətində olan avrozonadakı qonşularının ondan bir az daha ağır situasiyada olduğu ilə maraqlanmır.

→ 9

# "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 11-ci bəndlərini rəhbər tutaraq, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4; Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli və 29 mart tarixli 1114-VIQD nömrəli qanunları) 15.2.1-ci maddəsində "tibbi preparatlardan" sözləri "dərman və tibb vasitələrindən" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 22, maddə 947; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 13-cü maddə üzrə:

2.1.1. adında və birinci hissəsinin birinci abzasında "Normativ-texniki sənədləri" sözləri "Texniki normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

2.1.2. birinci hissənin ikinci abzasında (hər iki halda) "normativ-texniki sənədləri" sözləri "texniki normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

2.1.3. birinci hissənin üçüncü abzasında "dərman vasitələrinə dair normativ-texniki sənədləri" sözləri "dərman və tibb vasitələrinə, habelə dərman maddələrinə dair texniki normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

2.2. 17-ci maddənin birinci hissəsinin üçüncü abzasında "dərman vasitələrini" sözləri "dərman və tibb vasitələrini, habelə dərman maddələrini" sözləri ilə əvəz edilsin;

2.3. 27-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında "dərman vasitələri" sözləri "dərman və tibb vasitələri, habelə dərman maddələri" sözləri ilə əvəz edilsin;

2.4. 39-cu maddənin birinci hissəsi üzrə:

2.4.1. üçüncü abzasda "normativ-texniki sənədlərin" sözləri "texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

2.4.2. dördüncü abzasda "normativ-texniki sənəd" sözləri "texniki normativ hüquqi akt" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) 3-cü maddəsinin ikinci hissəsinin dördüncü abzasında "həkim reseptləri" sözləri "resept" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 685; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 6-cı maddənin birinci hissəsinin 1-ci bəndində "Həkim reseptləri" sözləri "Resept" sözü ilə əvəz edilsin;

4.2. 12-ci maddənin birinci hissəsinin 3-cü bəndində "həkim reseptləri" sözləri "resept" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 368; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I); Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1056-VIQD nömrəli Qanunu) 13-cü maddəsinin 1-ci hissəsinin ikinci abzası üçüncü abzas, üçüncü abzası dördüncü abzas, dördüncü abzası yeddinci abzas hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci, beşinci və altıncı abzaslar əlavə edilsin:

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən reseptə yazılmış təsiredici maddə üzrə aptek təşkilatında mövcud olan dərman vasitələri və onların qiymətləri barədə aptek təşkilatının satıcısı tərəfindən istehlakçıya məlumat verilməlidir.";

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dərman vasitələrinin ekspertizası əsasında qablaşdırılması Azərbaycan, türk, rus, ingilis, alman, ispan, italyan, fransız və macar dillərində olan, dərman vasitələrinin sadələşdirilmiş ekspertizası əsasında isə beynəlxalq patentləşdirilməmiş adı və əmtəə nişanı adı latın və ya kiril əlifbasında olmaq şərtilə qablaşdırılması hər hansı dildə olan dərman vasitələri dövlət qeydiyyatına alınmaqla, dərman vasitələrinin dövlət reyestrinə daxil edilərək həmin dildə olan qablaşdırma ilə idxalına, satışına və istifadəsinə yol verilir.";

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dərman vasitəsinin Azərbaycan dilində olan istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə istehlakçının tələbi əsasında aptek təşkilatı tərəfindən kağız formasında çap edilərək ona təqdim olunur.".

**Maddə 6.** "Patent haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 414 (Cild I) 23-cü maddəsinin birinci hissəsinin dördüncü abzasında "həkimin resepti" sözləri "resept" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4-cü maddənin mətnində "tibbi texnika və dərman vasitələri" sözləri "dərman və tibb vasitələri, habelə dərman maddələri" sözləri ilə əvəz edilsin;

7.2. 11-ci maddənin dördüncü hissəsi üzrə:

7.2.1. birinci cümlədə "həkim resepti" sözləri "resept" sözü ilə, "tibbi təyinatlı texnika" sözləri "tibb vasitəsi" sözləri ilə əvəz edilsin;

7.2.2. ikinci cümlədə "tibbi təyinatlı texnikanın və məmulatların" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilsin;

7.3. aşağıdakı məzmunda 36-1-ci maddə əlavə edilsin:

**"Maddə 36-1. Klinik protokol**

Klinik protokol həkim və ya feldşer tərəfindən hər hansı xəstəlik və ya xəstəlik əlamətləri zamanı tibbi yardım göstərilməsi ilə bağlı qərar qəbul edilməsində istifadə edilən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi qaydalar toplusudur.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) klinik protokolları hazırlayır, onların elektron bazasını yaradır və özünün rəsmi internet səhifəsində yerləşdirir.

Klinik protokollar reseptlər yazılarkən əsas götürülür.".

**Maddə 8.** "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 7 (Cild I); 2024, № 1, maddə 5) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 23-cü maddəsinin ikinci hissəsinə "vasitələrinin" sözündən sonra "və dərman maddələrinin" sözləri əlavə edilsin;

8.2. 32-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına "vasitələrini" sözündən sonra "və dərman maddələrini" sözləri əlavə edilsin.

**Maddə 9.** "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 413 (Cild I) 8-ci maddəsinin ikinci hissəsində "həkim resepti" sözləri "resept" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 55 (Cild I) 13-cü maddəsinə "vasitələri" sözündən sonra ", dərman maddələri və tibb vasitələri" sözləri əlavə edilsin.

**Maddə 11.** "Onkoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 656 (Cild I) 8.0.6-cı maddəsində "həkim resepti ilə" sözləri "reseptlə" sözü ilə əvəz edilsin.

**Maddə 12.** "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 481 (Cild I) 18.3-cü maddəsində "milli" sözü "klinik" sözü ilə əvəz edilsin.

**Maddə 13.** "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

13.1. 29-cu maddə üzrə:

13.1.1. adında "tibbi təyinatlı texnikanın və məmulatların" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilsin;

13.1.2. 29.1-ci maddə üzrə:

13.1.2.1. birinci abzasda "həkim resepti" sözləri "resept" sözü ilə, "tibbi təyinatlı texnika" sözləri "tibb vasitəsi" sözləri ilə əvəz edilsin;

13.1.2.2. ikinci abzasda "Həkim resepti" sözləri "Resept" sözü ilə, "tibbi təyinatlı texnikanın" sözləri "tibb vasitəsinin" sözləri ilə əvəz edilsin;

13.1.3. 29.2-ci maddədə "Həkim resepti" sözləri "Resept" sözü ilə əvəz edilsin;

13.1.4. 29.3-cü maddədə "Həkim resepti" sözləri "Resept" sözü ilə, "tibbi texnikadan" sözləri "tibb vasitəsindən" sözləri ilə əvəz edilsin;

13.2. 30.7-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman reklamda bioloji fəallığa malik qida əlavəsinin adı səsləndirildikdən dərhal sonra onun dərman vasitəsi olmadığı qeyd edilməli, həmçinin bioloji fəallığa malik qida əlavəsinin əmtəə nişanı adı ilə eyni fonda, ölçüdə və şriftdə olan aydın seçilən "DƏRMAN VASİTƏSİ DEYİLDİR" sözləri görünməlidir.".

**Maddə 14.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I) 19-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

14.1. 19.9-cu maddədə "göstərilən hal" sözləri "və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 6-2.4-cü və 9-1.12-ci maddələrində göstərilən hallar" sözləri ilə əvəz edilsin;

14.2. aşağıdakı məzmunda 19.9-2-ci və 19.9-3-cü maddələr əlavə edilsin:

"19.9-2. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 6-2.4-cü maddəsinə əsasən icazə verən orqan ərizəyə, ona əlavə edilmiş sənədlərə (məlumatlara) baxılmasının və dərman vasitələrinin sadələşdirilmiş ekspertizasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 11 (on bir) iş günü müddətində dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatını tanıyaraq dərman vasitələrinin dövlət reyestrinə daxil edir və ya imtina haqqında qərar qəbul edir.

19.9-3. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 9-1.12-ci maddəsinə əsasən icazə verən orqan ərizəyə, ona əlavə edilmiş sənədlərə (məlumatlara) baxılmasının, dərman vasitələrinin və ya dərman maddələrinin ekspertizasının nəticəsi əsasında 23 (iyirmi üç) iş günü, dərman vasitələrinin sadələşdirilmiş ekspertizasının nəticəsi əsasında isə 13 (on üç) iş günü müddətində dərman vasitələrinin idxalına icazəni və onun əlavəsini verir və ya icazənin verilməsindən imtina haqqında qərar qəbul edir.";

14.3. 19.10-cu maddənin birinci cümləsində ", 19.9-cu və 19.9-1-ci" sözləri "və 19.9 - 19.9-3-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2024-cü il*

# Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 2 nömrəli Əlavəsi - "İxracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla aparılan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) Siyahısı"nın "İdxal" hissəsinin üçüncü abzasının "Malların adı" sütununa "o cümlədən" sözlərindən sonra "dərman maddələri," sözləri əlavə olunsun və həmin sütunda "və tibbi ləvazimatlar" sözləri ", habelə tibb vasitələri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411 (Cild I); 2024, № 3, maddə 262) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 8.7-1 - 8.7-4-cü yarımbəndlər əlavə edilsin:

"8.7-1. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatını həyata keçirmək, habelə dərman vasitələrinin dövlət reyestrini aparmaq;

8.7-2. Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin siyahısını hazırlamaq, ictimaiyyətin məlumatlandırılması məqsədilə rəsmi internet səhifəsində yerləşdirmək və rübdə bir dəfə yenilənməsini təmin etmək;

8.7-3. dərman vasitələrinin keyfiyyətli, effektiv və təhlükəsiz olmamasına dair əsaslandırılmış faktlar aşkar edildikdə, həmin dərman vasitələrinin dövlət reyestrinə daxil edilməsindən imtina etmək, dərman vasitələrinin dövlət reyestrinə daxil edilmiş və ya "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsində nəzərdə tutulan dərman vasitələrinin Azərbaycan Respublikasında tətbiqini qadağan etmək və bu barədə ictimaiyyəti məlumatlandırmaq;

8.7-4. tibb vasitələrinin risk dərəcəsindən asılı olaraq təsnifatını müəyyən etmək;";

2.2. 22-ci bəndin birinci cümləsinə "vasitələrinin" sözündən sonra "və dərman maddələrinin" sözləri əlavə edilsin.

3. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 94 (Cild I) 2.3-1-ci bəndinə "16-1.1-ci" sözlərindən əvvəl "16.5-ci," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli 692 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1242 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti haqqında Əsasnamə"nin 10.7-ci bəndində "vasitələrini, tibbi ləvazimatları, avadanlıq və cihazları" sözləri "və tibb vasitələrini" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1256 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın 1.3.3-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"1.3.3. dərman və tibb vasitələri;".

6. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 avqust tarixli 2298 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1165) 6-cı hissəsində "2.3-2-ci" sözləri "2.2.3-cü" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 7-ci hissəsinin "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı"nın 3.3.5-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3-cü abzasın "Tədbirlər və layihələr", "Digər icraçılar" və "Nəticə indikatorları" sütunlarında (hər üç halda) "kliniki" sözü "klinik" sözü ilə əvəz edilsin;

7.2. 4-cü abzas üzrə:

7.2.1. "Tədbirlər və layihələr" və "ilkin nəticələr" sütunlarında "dərman və tibbi preparatlar" sözləri "dərman və tibb vasitələri, habelə dərman maddələri" sözləri ilə əvəz edilsin;

7.2.2. "baza ili üzrə göstəricilər" və "aralıq nəticələr" sütunlarında ismin müvafiq hallarında "dərman preparatı" sözləri ismin müvafiq hallarında "dərman vasitələri və dərman maddələri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2024-cü il*

# "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun tətbiqi və "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 36-1-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 36-1-ci maddəsinin birinci və ikinci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 498 (Cild I); 2024, № 1, maddə 28) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa "46-cı maddəsinin" sözlərindən əvvəl "36-1-ci maddəsinin birinci və ikinci hissələrində," sözləri əlavə edilsin;

3.2. onuncu abzasa "hissəsində" sözündən sonra "və 36-1-ci maddəsinin birinci və ikinci hissələrində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2024-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan-Rusiya dövlət sərhədindən "Samur" (Azərbaycan Respublikası) - "Yaraq-Qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və giriş yollarının istismarı və onlara xidmət göstərilməsi qaydaları haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il martın 5-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan-Rusiya dövlət sərhədindən "Samur" (Azərbaycan Respublikası) - "Yaraq-Qazmalar" (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və giriş yollarının istismarı və onlara xidmət göstərilməsi qaydaları haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2024-cü il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə ölkənizin hökumətinə və xalqına səmimi təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətləri gələcəkdə də möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə ölkənin sosial-iqtisadi inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

***Kim Çen IN,***
***Koreya Xalq Demokratik Respublikası***
***Dövlət Şurasının Sədri***

❖❖❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının ildönümü münasibətilə Sizi tatarıstanlılar adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Qoy Azərbaycan xalqının tarixində yeni səhifənin açılmasının rəmzi olan bu böyük bayram ölkənin sakinlərinin qəlblərini onları Azərbaycanın möhtəşəm nailiyyətlər qazanmasına ruhlandıran yüksək əhvali-ruhiyyə, daim möhkəm birlik və yaradıcılıq eşqi ilə doldursun!

Sizə və yaxınlarınıza, ölkənizin bütün vətəndaşlarına səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik, bütün təşəbbüslərinizdə uğurlar və hər zaman ümummilli hədəflərə nail olmağınızı arzulayırıq.

Bu mühüm dövlət bayramının sevincini Azərbaycan xalqı ilə bölüşərək, Rusiya-Azərbaycan strateji münasibətləri çərçivəsində Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında gələcəkdə də mehriban və məhsuldar əməkdaşlığa ümidimizi ifadə edirik.

Sizə, yaxınlarınıza və Azərbaycan Respublikasının sakinlərinə yüksək ehtiramımızı və xoş bayram arzularımızı çatdırırıq.

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya-İslam dünyası"***
***Strateji Baxış Qrupunun sədri***

❖❖❖

Möhtərəm İlham Heydər oğlu!

Xahiş edirəm, Müstəqillik Günü münasibətilə təbriklərimi qəbul edin.

Ümumhəmkarlar İttifaqları Konfederasiyası Azərbaycanın həmkarlar ittifaqları ilə dostluq və tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verir.

Sizə ali dövləti fəaliyyətinizdə səmimi-qəlbdən uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Viktor PİNSKİ,***
***Rusiya Federasiyası Federal Məclisinin***
***Dövlət Dumasının komissiya sədri,***
***Ümumhəmkarlar İttifaqları***
***Konfederasiyasının Baş katibi***

## "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il martın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyət üzvlərinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2024-cü il*

## "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 3 aprel tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il martın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 3 aprel tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2024-cü il*

## Əli Əsədov belaruslu həmkarının dəvəti ilə Minskə işgüzar səfərə gedib



İyunun 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Belarus Respublikasının Baş naziri Roman Qolovçenkonun dəvəti ilə Minsk şəhərinə işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, "Minsk" milli aeroportunda Əli Əsədovu Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenko və digər rəsmi şəxslər qarşılayıblar.

Azərbaycan Respublikasının Baş naziri səfər zamanı qonaq qismində Avrasiya Hökumətlərarası Şurasının iclasında və "Avrasiya İqtisadi İttifaqının ərzaq təhlükəsizliyi" plenar sessiyasında iştirak edəcək.

## Baş nazir Əli Əsədov Minskdə "Belagro 2024" sərgisi ilə tanış olub



İyunun 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Belarusa işgüzar səfəri çərçivəsində Minskdə "Belagro 2024" Beynəlxalq ixtisaslaşdırılmış sərgini ziyarət edib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov və Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərin hökumət başçıları geniş çeşidli aqrosənaye məhsullarının, kənd təsərrüfatı texnikası və avadanlıqlarının müasir nümunələrinin, bitkiçilik, heyvandarlıq və quşçuluğun inkişafında qabaqcıl istiqamətlərin nümayiş etdirildiyi sərgi ilə tanış olublar.

## *Əli ƏSƏDOV:* "Ərzaq təhlükəsizliyinin təmini Azərbaycanın dövlət iqtisadi siyasətinin strateji əhəmiyyətli prioritetlərindən biri kimi müəyyən edilib"

İyunun 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Minskdə "Avrasiya İqtisadi İttifaqının ərzaq təhlükəsizliyi" plenar sessiyasında qonaq qismində iştirak edib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, plenar sessiyada iştirak edən Ə.Əsədov iştirakçıların diqqətini ərzaq təhlükəsizliyinin əhəmiyyətinə çəkib.

Qeyd olunub ki, ərzaq təhlükəsizliyi cəmiyyətin sağlamlığının, rifahının və davamlı inkişafının təmin edilməsində mühüm rol oynayır, ölkənin iqtisadi və sosial sabitliyi ilə bilavasitə bağlıdır, eyni zamanda milli təhlükəsizlik baxımından strateji əhəmiyyətə malikdir.

Baş nazir bildirib: "Yuxarıda göstərilənləri və digər çağırışları nəzərə alaraq, ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycanın dövlət iqtisadi siyasətinin strateji əhəmiyyətli prioritetlərindən biri kimi müəyyən edilib".

Plenar iclas iştirakçılarına yerli məhsullara olan daxili tələbatın ödənilməsi məqsədilə iqtisadiyyatın kənd təsərrüfatı və yeyinti sahələrinin inkişafı istiqamətində dövlət tərəfindən həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat verilib.

Kənd təsərrüfatı və ərzaq məhsullarının təhlükəsizliyinə, eləcə də bitki və heyvanların sağlamlığına diqqət artırılır.

Diqqətə çatdırılıb ki, həyata keçirilən kompleks tədbirlər nəticəsində ötən il Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının həcmi 3 faiz artıb. Eyni zamanda heyvandarlıq məhsullarında artım 3,2 faiz, bitkiçilikdə 2,7 faiz təşkil edib.

Ə.Əsədov əlavə edib: "Müsbət tendensiya bu il də davam edir. İlk dörd ay ərzində kənd təsərrüfatı məhsullarının istehsalı 1,6 faiz artıb. Heyvandarlıq məhsullarının istehsalı 1,5 faiz, bitkiçilik məhsullarının istehsalı isə 2,7 faiz artıb".

Vurğulanıb ki, dəstək tədbirləri sayəsində ölkənin bir sıra ərzaq məhsulları, o cümlədən meyvə-tərəvəz, kartof, yumurta, ət və süd məhsulları ilə özünütəminetmə səviyyəsi 80 faizi ötüb.

Baş nazir ötən ilin sonunda Azərbaycanın qeyri-neft/qaz ixracının təxminən 10 faiz artdığını da qeyd edib.

Ərzaq məhsulları istehsalçılarının həvəsləndirilməsi istiqamətində kompleks tədbirlərdən danışan Ə.Əsədov onlara subsidiyaların, vergi, gömrük və bir sıra digər güzəştlərin verildiyini bildirib.





Fevral ayında Nazirlər Kabineti mikro, kiçik və orta biznesə əlavə dəstəyin göstəriləcəyi iqtisadiyyatın prioritet sahələrinin siyahısını təsdiq edib. İqtisadiyyatın mühüm sahələrindən biri kimi kənd təsərrüfatı da bu siyahıya daxil edilib.

Bitki və heyvan sağlamlığının qorunması sahəsində ardıcıl tədbirlərdən danışan Ə.Əsədov qeyd edib ki, qanunvericilik bazasının təkmilləşdirilməsi, yüksək texnologiyalar və innovativ həllərdən istifadə, laboratoriya imkanlarının artırılması, sərhəddə baytarlıq və fitosanitar nəzarətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

İqlim dəyişikliyinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə mənfi təsirinə toxunan Ə.Əsədov Azərbaycanın iqlim dəyişikliyi ilə qlobal mübarizəyə verdiyi töhfələr barədə plenar sessiya iştirakçılarına məlumat verib. O bildirib ki, bu il COP29-un Azərbaycanda keçirilməsi ölkənin bu istiqamətdə strategiyasının tərkib hissəsidir.

Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsinə dair bütün məsələlər üzrə Avrasiya İqtisadi İttifaqının tərəfdaş üzvləri ilə qarşılıqlı faydalı əməkdaşlığı daha da inkişaf etdirməyə hazır olduğu ifadə edilib.

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib






İyunun 3-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan keçən müddətdə COP29 üzrə Tədbirlər Planının icrası istiqamətində görülmüş işlər barədə məlumat verib.

Təşkilat Komitəsinin sədri bildirib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə nümunəvi liderlik nümayiş etdirir. Samir Nuriyev vurğulayıb ki, Prezident İlham Əliyevin müxtəlif çıxış və müsahibələrində açıqladığı vacib istiqamətlər, səsləndirdiyi tezislər Azərbaycanın COP29 üzrə fəaliyyətinin əsasını təşkil edir və dövlət başçısının inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iqlim dəyişmələri kontekstində üzləşdikləri problemlərin həllinin ölkəmizin prioritetlərindən biri olaraq bəyan etməsi beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb.

Samir Nuriyev şəffaflığın və inklüzivliyin təmin edilməsi məqsədilə keçən aylar ərzində COP29 komandası tərəfindən müxtəlif danışıq qrupları ilə çoxsaylı məhsuldar görüşlərin və məsləhətləşmələrin keçirildiyini, onların mövqeyinin və COP29-dan gözləntilərinin öyrənildiyini, Azərbaycanın müzakirə olunan mövzular ətrafında qlobal həmrəyliyin və konsensusun formalaşdırılması istiqamətində çalışdığını vurğulayıb.







Bu gün öz işinə başlayan Bonn İqlim Dəyişmələri Konfransına toxunan Təşkilat Komitəsinin sədri bildirib ki, artıq ölkəmiz COP29 sədrliyinin fəal fazasına daxil olur və dövlət qurumları COP29-un uğurla keçirilməsi üçün səylərini daha da artırmalıdır.

Vətəndaş cəmiyyətinin də proseslərə töhfə verdiyini qeyd edən Samir Nuriyev bu xüsusda, Afrikanın 130-dək QHT-si və İtaliyada G7 Vətəndaş Cəmiyyəti Sammitində iştirak edən bir sıra QHT-lər tərəfindən COP29-un ev sahibi kimi Azərbaycana dəstək bəyanatlarının verilməsini xüsusi olaraq qeyd edib. Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev COP29-a hazırlıqla bağlı ümumi gedişat və Bonn İqlim Dəyişmələri Konfransı barədə məlumat verib. Bildirib ki, konfrans çərçivəsində Azərbaycan tərəfindən COP29 sədrliyinin baxışı və təşəbbüsləri ilə bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Xarici işlər naziri Ceyhun Bayramov müxtəlif ölkələr və danışıqlar qrupları ilə keçirilən görüş və məsləhətləşmələr, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, COP29-da qəbul edilməsi nəzərdə tutulan sənədlərlə bağlı son vəziyyət barədə danışıb.

Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf SOCAR-ın "yaşıl gündəliyi" və fəaliyyət istiqamətlərində emissiyaların azaldılması barədə çıxış edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova iqlim fəaliyyətində qadınların rolu barədə danışıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov COP29 zamanı gömrük məsələlərinin tənzimlənməsi, nümayəndə heyətlərinə və onlara məxsus yüklərə münasibətdə sürətli gömrük rəsmiləşdirilməsi prosedurlarının tətbiqi barədə çıxış edib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev mehmanxanalar və digər yerləşmə yerləri, bu yaxınlarda istifadəyə verilmiş vahid onlayn rezervasiya platforması barədə məlumat verib.

Milli Məclisin deputatı Könül Nurullayeva COP29-la bağlı parlament istiqamətində aparılan işlər, xüsusilə Parlamentlərarası İttifaqla əməkdaşlıq çərçivəsində keçiriləcək Parlament konfransı barədə danışıb.

"Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin sədri Gülşən Axundova qeyri-hökumət təşkilatlarının COP29-a töhfəsi barədə çıxış edib.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası istiqamətində görülən işlərin davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Prezident Administrasiyasının rəhbəri Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru ilə görüşüb



İyunun 3-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Samir Nuriyev qarşı tərəfə ölkəmizin COP29-a hazırlıq prosesi ilə bağlı ətraflı məlumat verib.

Fatih Birol Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüşdə COP29 ilə bağlı səmərəli müzakirələr aparıldığını məmnuniyyətlə vurğulayaraq, rəhbərlik etdiyi təşkilatın COP29-un uğurla keçirilməsinə töhfə verməyə hazır olduğunu bildirib.

# Diplomatlar üçün "Xarici Siyasət Proqramı"na başlanılıb

İyunun 3-də ADA Universiteti və Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) xarici diplomatlar üçün birgə təşkil etdiyi "Xarici Siyasət Proqramı" öz işinə başlayıb.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, qitələr arasında diplomatik körpü rolunu oynayan proqram Amerika, Afrika, Avropa və Asiyadan 14 ölkəni təmsil edən 21 diplomatı bir araya gətirib. Həmin ölkələr sırasında Qayana, Burkina Faso, Ekvador, Syerra-Leone, habelə Belarus, Moldova, Slovakiya, Tacikistan, Özbəkistan və digər ölkələri qeyd etmək mümkündür. Proqramın bu gün ADA Universitetində baş tutan açılış mərasimində bu ali təhsil müəssisəsinin dövlət, xarici və tələbə işləri üzrə prorektoru Fariz İsmayılzadə, onun müşaviri Aygün Hacıyeva və AIDA-nın rəisi Elməddin Mehdiyev çıxış ediblər.

Diplomatlara ölkəmizin regiondakı geostrateji mövqeyi, regional və qlobal əməkdaşlığı barədə məlumat verən Fariz İsmayılzadə iştirakçıların ölkəmizə gəlişinin əlamətdar bir dövrə - torpaqlarımızın işğaldan azad edildiyi, həmçinin Azərbaycanın COP29 kimi nüfuzlu tədbirə evsahibliyi etməyə hazırlaşdığı bir vaxta təsadüf etdiyini vurğulayıb.

AIDA-nın rəisi Elməddin Mehdiyev isə bu proqramın beynəlxalq əməkdaşlığa verdiyi töhfədən, eləcə də Azərbaycanın yeni donor ölkəsi kimi beynəlxalq yardım sahəsində əldə etdiyi uğurlardan danışıb.

Çıxışında ikitərəfli əlaqələrin inkişafina verilən akademik dəstəyin önəmindən bəhs edən Aygün Hacıyeva "Xarici Siyasət Proqramı"nın, eləcə də ADA Universitetinin beyin mərkəzi olan İnkişaf və Diplomatiya İnstitutunun tarixinə və fəaliyyətinə toxunub. Əlavə edib ki, uzun illik təcrübəyə malik proqram vasitəsilə xarici diplomatlar ölkəmizin milli maraqları, müasir regional reallıqlar fonunda Azərbaycanın yürütdüyü xarici siyasət, təhlükəsizlik strategiyası və digər vacib məsələlərlə bağlı ətraflı məlumat əldə edirlər. ADA Universitetinin professor-müəllim heyəti, İnkişaf və Diplomatiya İnstitutunun əməkdaşları, eləcə də Xarici İşlər Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və digər dövlət qurumlarından dəvət edilən qonaqlar xarici diplomatlar qarşısında beynəlxalq siyasət, səmərəli diplomatik fəaliyyət, peşəkar bacarıq və qabiliyyətlərin inkişafı, Azərbaycanın xarici siyasət prioritetləri və uğurları, enerji diplomatiyası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafina Azərbaycanın töhfələri kimi mövzularla yanaşı, ölkəmizin tarixi, milli mənsubiyyəti, turizm potensialı və beynəlxalq müstəvidəki rolu, rəqəmsal innovasiya və ictimai xidmət sahəsindəki uğurları mövzularında məruzələrlə çıxış edəcəklər.

Proqram çərçivəsində həmçinin iştirakçıların bir sıra dövlət qurumlarında tanışlıq görüşləri keçirməsi, eləcə də tarixi-mədəni yerləri ziyarət etməsi və işğaldan azad edilmiş Füzuli rayonuna səfəri nəzərdə tutulur.

Xatırladaq ki, bu günədək 7 dəfə təşkil olunan proqram 2018-ci ildən etibarən həyata keçirilir. Ötən illərdə 63 ölkədən 96 xarici diplomat proqramda iştirak edib.

# Qırğızıstan Parlamentinin Sədri Azərbaycana səfərə gəlib

Qırğızıstan Parlamentinin (Joqorku Keneşinin) Sədri Nurlanbek Şakievin başçılıq etdiyi nümayəndə heyəti iyunun 3-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Qırğızıstan Parlamentinin Sədri Nurlanbek Şakievi və nümayəndə heyətini Milli Məclisin Sədrinin birinci müavini Əli Hüseynli, Qırğızıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Quliyev, Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və digər rəsmi şəxslər qarşılayıblar.

# Azərbaycanın xarici işlər naziri ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri ilə müzakirə aparıb

Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-ABŞ ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, habelə postmünaqişə dövründə regional sülh prosesi ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov iki ölkənin rəsmiləri arasında təmasların intensivləşməsinin münasibətlərin inkişaf dinamikasına müsbət təsir göstərdiyini diqqətə çatdıraraq, bu istiqamətdə qarşılıqlı səfərlərin əhəmiyyətindən bəhs edib.

Qarşı tərəf postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesi istiqamətində aparılan danışıqlar, habelə sülh gündəliyi üzrə əldə olunan son inkişaflar barədə ətraflı məlumatlandırılıb.

Ceyhun Bayramov xüsusilə delimitasiya komissiyaları arasında əldə edilən, ölkəmizin Ermənistan tərəfindən işğal altında olan 4 kəndinin geri qaytarılmasını ehtiva edən son razılığın ikitərəfli danışıqlar prosesinin regional sülh və etimad quruculuğuna real töhfə vermək baxımından faydalılığını bir daha təsdiqlədiyini vurğulayıb. Söhbət zamanı mayın 10-11-də Qazaxıstanın Almatı şəhərində konstruktiv ruhda baş tutan danışıqların da ikitərəfli sülh prosesinin effektivliyinə dəlalət etdiyi qeyd olunub.

Baş müşavir Lui Bono regionda baş verən son proseslərin sülh quruculuğu fəaliyyətinin gələcəyinə ümid yaratdığını, bu istiqamətdə ABŞ tərəfinin də öz növbəsində danışıqlar prosesinə dəstək və töhfə verməyə daim hazır olduğunu ifadə edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**Donub qalmışam heyrətdən…**

**Qarşımda qədim və sirli tarixin xəritələri - bu qoca tarixi yaşadıb, lal sükuta dalıb...**

**Heyrətlə, sirli-müəmmalı baxır...**

**Mən də baxıram, həsrətli gözlərimin acısını alıram…**

**Gözlərimsə... qərinələrcə… yol çəkir.**

**Aman!..**

**Bu Yurd, bu Vətən Torpağı gör nə boydaymış...**

**Pərən-pərən olmuş Vətən torpağı…**

**Nələr gedib, nələr?!**

**Parçalanıb, paylanıb, satılıb…**

**Axırı da… Belə…**

**İllər boyu, sağdan-soldan, qol-qanadı qırılmış QARTAL bənzərli bir sonuc…**

**Dimdiyi Xəzərə çökmüş, dərin düşüncəli və min illərin sirrini-sehrini özündə yaşadan bir QARTAL...**

**İllərin cəfası və səfası ilə düşünürəm...**

**Hamısını, bu qədim-qayım torpaqların hamısını qucaqlayıb, bağrıma basmaq istəyirəm...**

**Eeheeeyyy!!!**

**Qayıdırıq, gəlirik və... bütövləşirik!!!**

**Səbirlə, aramla...**



**Bütövləşən Zəfər ruhlu Vətənimizi haraylayır!**

**Qibləsi, səmti, yolu-yönü haradır?..**

**Yaradan bilir!..**

**Və Yaradanın yaratdığı qətiyyətli və uzaqgörən Rəhbər də bilir!..**

*Azərbaycan torpaqlarını işğal edib, yurd-yuvamızı çapıb yağmalayanların, satıb-sovanların, vücudları şişib dərilərinə, iddiaları isə yerə-göyə sığmayanların bir gün qaçıb-aradan çıxmaq istəyərkən, sərhəd-keçid məntəqəsində qulaqlanıb, Bakıya qoluqandallı gətiriləcəkləri, indi burada ağzıbir küncünə qısılıb əməllərinə görə ədalət mühakiməsi qarşısında cavab verəcəkləri günü qorxa-qorxa və peşmançılıqla gözləyəcəkləri röya yox, reallıqdır!*

**Bizim qayıdış planlarımız genişdir, qayıdırıq...**

**Üz tutub qədim-qayım torpaqlarımız boyunca gedirik...**

**Özü də davasız-savaşsız, sakit və təmkinlə...**

**Diplomatik məharətlə...**

**İnanılmazları mümkün edən, ağlagəlməzləri reallığa çevirən odur — İLHAM ƏLİYEV!..**

**Adını qızıl hərflərlə ƏBƏDİYYƏTƏ yazdıran milli dövlətçilik tariximizin BÖYÜK ŞƏXSİYYƏTİ…**

❖ ❖ ❖

**Tale bizə başqalarının Azərbaycana və bölgəyə qarşı məkrli oyunlarını pozan, zaman-zaman buraları qan çanağına döndərmək istəyənlərin fitnə-fəsadlarına imkan verməyən və arzusunda olduğumuz gələcəyi kərpic-kərpic qurub, dikəldən güclü və səriştəli LİDER nəsib edib…**

***O LİDER ki, əslində, hər yerdədir!..***

*Bəzən də... heç nəzərə çarpmadan, özünü bəlli etmədən...*

*Özünün görünmədiyi yerlərdə Prezidentimizin qətiyyəti danışır, nəcib əməlləri dilə gəlir, böyük şahmat taxtasında birilərinin hiyləgərcəsinə qurmağa çalışdıqları kombinasiyalara qarşı mahir gedişləri ilə çoxlarını mat qoyur...*

**Hətta sükutunda belə, qətiyyəti görünür!..**

❖ ❖ ❖

**İlham Əliyev *Haqq, İnam, Azərbaycan* yolunda Tanrı rizasıyla, xalqının duaları ilə, bir də ki, əlbəttə, ən böyük dəstəkçisi, ən fədakar silahdaşı, ən cəfakeş dostu Mehriban xanım Əliyeva ilə birgə əzmlə addımlayır...**

*Cıdır düzündən Xəzər sahilinə, Ağalıdan Şahdağa, Əlincədən Muğanadək... - bu məmləkətin hər bir guşəsində Onların səfərlərinin, əməllərinin və amallarının əsrarəngiz izləri, möhtəşəm nümunələri var...*

*Onların dövlətçilik təfəkkürünün "Dəmir yumruğ"u, strateji baxışlarının "zərif biləy"i Azərbaycanı həm hifz edir, həm də gülüstana çevirir...*

*Bir-birilərindən aldıqları GÜC ilə millətə və dövlətə də GÜC verirlər...*

*Güclü Azərbaycanı birgə qururlar – Tanrının buyruğu ilə, taleyin qisməti ilə, Heydər Əliyevin vəsiyyəti ilə...*

*Kim danar? Əliyevlər ailəsi böyük Azərbaycan ailəsinin halal mayasını, möhkəm bünövrəsini və daha uğurlu gələcəyini təmin edən əsas təməldir!..*

***Bu təməldə** – keçmiş də birləşir, sabah da...*

***Bu təməldə** – xalq da qovuşur, dövlət də...*

*Arzularımız da gerçəkləşir, hədəflərimiz də...*

*Və Azərbaycan bütövləşir, tamlaşır...*

# TALEYİN HÖKMÜ



İlham ƏLİYEV kimi ŞƏXSİYYƏTLƏRİ xalq üçün seçən, onların tarixdəki mövqeyini, statusunu müəyyənləşdirənsə – TALEDİR…

Ali Baş Komandanın UCA və MÜZƏFFƏR TALEYİ…

Onun Azərbaycan xalqına, dövlətinə rəhbərlik etməsi, bu şərəfli və həyati məsuliyyəti çiyinlərinə götürməsi, özünüz deyin, TALEYİN HÖKMÜ DEYİLMİ?!.

İlham Əliyevin varlığı – bizim üçün elə Taleyin hökmü deyilmi?..

❖ ❖ ❖

*O, çətinliklərdən və döyüşlərdən keçib gəlmiş, Azərbaycan xalqının TALEYİNƏ şərəflə yazılmış SƏRKƏRDƏ, həyat və fəaliyyəti ilə xalqın da, dövlətin də alın yazısına çevrilmiş LİDERDİR...*

Milli dövlətçilik tariximizin qırıq-qırıq parçalardan ibarət hissələri bu adda birləşib bir bütün olur...

Əcdadlarımızdan üzübəri yol gələn pərakəndə məqsədlər, yollar, ideyalar, təşəbbüslər bu adda bir araya gəlib aydın gələcəyə, böyük hədəflərə yönəlir...

**Tarixin böyük həqiqəti: bax beləcə güclüyük!**

**Qürurluyuq!..**

**Birgəyik!..**

**Tamıq!..**

**Birlikdə — cəmimizdən daha böyüyük!..**

❖ ❖ ❖

*Azərbaycan Prezidentinin yaratdığı salnaməni bu tarixin canlı şahidləri kimi müxtəlif mənbələrdən görüb izlədikcə, onun ayrı-ayrı epizodlarını düşüncələrində bir araya gətirdikcə, yaranan mənzərəyə heyrətlənməyə bilmirsən...*

*İlahi, bir insan bu qədər aydın fəhmə, müdrikliyə, qətiyyət və iradəyə, eyni zamanda o qədər də səbir və təmkinə necə sahib ola bilərmiş...*

Siyasət dəryasının bir an da ara verməyən dərin burulğanları ətrafında, qaynar qazan kimi çoxlarını yandırıb pörşələyən aramsız proseslərin tam mərkəzində, bu qədər çevik və səhvsiz davranmağı, üstəlik, hadisələrin sürətli axarını hər an ölkənin, xalqının möhtəşəm uğurlarına yönəltməyi hansı məktəblərdə öyrənmək, hansı təcrübədən görüb əxz etmək olar ki?!.

**Cənab İlham Əliyev də lap gənc yaşlarından siyasətində, idarəetməsində, strateji qərarlarında həmişə öz işinin yüksək peşəkarı kimi davrandı.**

**Başqa cür ola da bilməzdi – axı o, nəhəng DÖVLƏT XADİMİ Heydər Əliyevin müqəddəs ocağından nur alıb, boy tutub, bəhrələnib.**

*Prezidentimizin beynəlxalq siyasi məkanda yüksəldiyi uca mövqe, malik olduğu böyük nüfuz, sözünün, rəyinin təsir gücü, kəsəri Azərbaycan xalqının tarixində yeni başlanğıc, yeni səhifədir!*

**Mənə elə gəlir ki, bu xalq, böyük imperiyaların mövcudluğundan bəri, sözü, baxışı, strateji qərarları geniş coğrafiyada mühüm dəyişikliklər yaradan, proseslərin axarını dəyişən, yeni reallıqlar müəyyənləşdirən İlham Əliyev kimi LİDERi gözləyirmiş...**

**"Ona özüm qədər inanıram" - deyib çətinliklə qurduğu dövləti, məşəqqətlə xilas etdiyi xalqını məhz Ona əmanət etməkdə Ulu Öndərimiz nə qədər haqlı idi...**

**Əslində, elə bu da İlahi Haqq idi, Tanrı hökmü, Tale Qisməti idi - Azərbaycan dövləti üçün, Azərbaycan xalqı üçün!..**

**İLHAM ƏLİYEVİN liderlik qüdrəti isə yalnız Onun aid olduğu zəmanənin reallıqları ilə deyil, həm də, qövm-qədim tariximizin zərurətləri ilə bir-birini tamamladı...**

❖ ❖ ❖

**Mahir və peşəkar diplomatın atdığı ardıcıl addımları izlədikcə, qurduğu mürəkkəb kombinasiyaların hələ ilkin nəticələrinə baxdıqca, adamı heyrət bürüyür.**

**Bu heyrətin içində düşünürəm, gör hələ son nəticə necə möhtəşəm olacaq!!!**

*Kimin ağlına gələrdi ki, dünyanın böyük güclərinin öz oyunlarını oynamaqdan ötrü, Qafqazın qoynunda əfi ilan kimi bəsləyib böyütdükləri, əsrlərdir regionumuzun başının bəlasına çevirdikləri erməni projesi cəmi üç ilin içindəcə tam məhv ediləcək?!*

Xəyalların hüdudu, miqyası yoxdur. Ancaq xəyalları da gerçəkliklə birləşdirəndə, qısa müddətdə ərazi bütövlüyümüzü bərpa edəcəyimizi, azad yurdlarımıza el-obanın köçünün başlanacağını kim düşünə bilərdi?..

**Xankəndidə bayrağımız dalğalanacaq, bu doğma şəhərimiz separatçıların nanəcib izlərindən, zəhərli nəfəsindən birkərəlik arınıb durulacaq...**

**Sıra Qazaxın kəndlərinə gələcək, bir güllə atmadan işğalçılardan təmizlənəcək.**

**Vallah, xəyallarımızda da bunların hamısını bir yerdə və bir zamanda təsəvvür etmirdik...**

**Ancaq İlham Əliyevin reallıqları xəyallarımızın hüdudlarını da qat-qat aşdı!..**

**… Və bayaq xəritədəki bənzətdiyim o Qartal sankı dimdiyini dənizdən çıxarıb, güc yığır, qol qaldırıb qanad çalır. Qayıdan və qayıdacaq torpaqlarımızı isti, imisti ANA qoynuna toparlamaq istəyir…**

**Belə böyüklük və möhtəşəmlik, tarix boyu, taleyin sevib-seçdiyi az sayda ŞƏXSİYYƏTƏ nəsib olur…**

**Bu əməlləri ilə Taleyin hökmü olmaq - sözü dürüst və imzası qədər dəyəri olan İNSANların qismətidir…**

**Nə yaxşı ki Tale Azərbaycanla bağlı öz hökmünü cənab İlham Əliyevin əməllərində göstərir və yaşadır.**

**Tarixi və taleyi biz yazmırıq…**

**Qisməti də biz bölüşdürmürük: o, hər kəsə layiq və qadir olduğu qədər verilir!..**

**Bəlkə də taleyin hökmüdür ki, bu, Sizin alın yazınız olmalı idi, cənab Prezident!!!**

**Sizin timsalınızda TALE – bizi, layiqliyin də, qadirliyin də ən yüksək məqamında qərarlaşdırdı!..**

**Ömür yolunuz həmişə belə nurlu olsun, əziz Prezidentimiz!!!**

**İmamverdi İSMAYILOV**

# Məşğulluq imkanlarının genişləndirilməsi üçün qanunvericilik təkmilləşdirilir



İyunun 3-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda 2 məsələ müzakirə edilib.

Əvvəlcə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə baxılıb. Ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsinin Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu vurğulayan komitə sədri Musa Quliyev təklif olunan dəyişikliklərin sosial müdafiəyə ən çox ehtiyacı olan şəxslərin məşğulluq imkanlarının daha da genişləndirilməsi, bu sahədə mövcud olan hüquqi bazanın təkmilləşdirilməsi məqsədi daşıdığını bildirib. Qeyd olunub ki, dəyişikliklər işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması məqsədilə vəsaitlərin ayrılmasını da nəzərdə tutur.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, Azərbaycanın müvafiq qanunları ilə hər il üçün təsdiqlənən İşsizlikdən Sığorta Fondunun büdcəsində məqsədli proqramların həyata keçirilməsi, həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması məqsədi ilə vəsaitlər ayrılır. Bununla belə, "Məşğulluq haqqında" Qanunda sözügedən tədbirlərin təşkili qaydaları ilə bağlı müvafiq tənzimləmə yoxdur. Təqdim edilən qanun layihəsində məhz sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması məqsədilə əlavə iş yerlərinin yaradılması və məqsədli proqramların həyata keçirilməsi ilə bağlı müddəalar öz əksini tapmışdır. İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev dövlət başçısı tərəfindən təsdiq olunmuş Məşğulluq və Sosial-iqtisadi inkişaf Strategiyalarının icrasından söz açıb, bu sahədə həyata keçirilən müxtəlif proqramların əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, son altı ildə həyata keçirilmiş islahatlar nəticəsində 545 min şəxs işlə təmin olunub, 131 mindən artıq şəxsin haqqı ödənilən ictimai işlərdə müvəqqəti məşğulluğuna nail olunub, 80 minə yaxın şəxsin özünüməşğulluq proqramlarına cəlb olunması təmin edilib. İndiyədək 27 mindən çox şəxsin peşə hazırlığı keçdiyini deyən nazir müavini, 130-a yaxın peşə hazırlığı mərkəzləri ilə əməkdaşlığın həyata keçirildiyini, həmçinin ölkə üzrə nazirliyin tabeliyində olan mərkəzlərin sayının 10-a çatdırılmasının nəzərdə tutulduğunu bildirib.

Diqqətə çatdırılıb ki, hər iki dəyişiklik sosial müdafiəyə ehtiyacı olan şəxslərin əmək bazarına çıxışını artırmaq məqsədi daşıyır. Təqdim olunan dəyişikliklər qəbul olunacağı təqdirdə il ərzində əlavə olaraq 15 minə yaxın işsiz və iş axtaran şəxslərin aktiv məşğulluq tədbirlərinə cəlb olunması təmin edilə bilər.

Komitə sədri Musa Quliyev gündəliyin növbəti məsələsini - "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Qeyd edilib ki, bu layihə ilə bağlı komitəyə heç bir təklif daxil olmayıb.

Müzakirələrdə komitənin sədr müavini Məlahət İbrahimqızı, üzvləri Vüqar Bayramov, Aqil Məmmədov, Jalə Əliyeva, Ziyad Səmədzadə, Sevinc Hüseynova, Əziz Ələkbərov və Rauf Əliyev təqdim olunan qanun layihələri ilə bağlı fikirlərini bildiriblər,

Hər iki qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Vətəndaşlığı olmayan şəxslər nikah bağlaya bilməyəcəklər



İyunun 3-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında 2 məsələ müzakirə edilib.

Məsələlər barədə məlumat verən komitə sədri Hicran Hüseynova birinci qanun layihəsi ilə bağlı diqqətə çatdırıb ki, Azərbaycan ərazisində olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız uzun müddət yaşayan əcnəbilərin bir çoxu ölkə ərazisini tərk etməmək üçün Azərbaycan vətəndaşı ilə nikah bağlamağı qərar verirlər. Bu hal Azərbaycan vətəndaşı ilə nikahda olan əcnəbilərə münasibətdə qanunvericiliyin müəyyən etdiyi imtiyazlardan sui-istifadə edilməsi riski yaratmaqla yanaşı, qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərin effektivliyinə mənfi təsir göstərir.

Bildirilib ki, qeyd olunan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə hazırlanmış qanun layihəsində Ailə Məcəlləsinin nikahın bağlanmasına mane olan halları əks etdirən 12-ci maddəsinə müvafiq dəyişiklik təklif olunur. Dəyişikliyə əsasən, aralarında nikahın bağlanmasına yol verilməyən şəxslərin sırasına ikisindən biri və ya hər ikisi ölkə ərazisində qanunsuz olan əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin də əlavə edilməsi nəzərdə tutulur.

Ailə Məcəlləsinə dəyişiklik edilməsi haqqında digər qanun layihəsini təqdim edən Hicran Hüseynova bildirib ki, mövcud ailə qanunvericiliyinə uyğun olaraq nikaha daxil olmaq istəyən şəxslər siyahısı müəyyən edilmiş xəstəliklər üzrə tibbi müayinədən keçirlər. Lakin həmin şəxslərin tibbi müayinəsi və onlara müvafiq məsləhətlər verilməsi ilə bağlı nəzərdə tutulan qayda Azərbaycan Respublikasının səfirlikləri və konsulluqlarının akkreditə olunduğu ölkələrdəki hallara şamil edilmir. Bu baxımdan, ölkə hüdudlarından kənarda yaşayan Azərbaycan vətəndaşları arasında nikah bağlanılması məqsədilə həmin vətəndaşlar tələb olunan tibbi müayinədən keçmək üçün Azərbaycan Respublikasına gəlməlidirlər. Bu isə nikaha daxil olmaq istəyən şəxslər üçün maliyyə və vaxt itkisinə səbəb olur. Qeyd olunub ki, deyilənləri nəzərə alaraq, təqdim olunan qanun layihəsində Ailə Məcəlləsinin 13-cü maddəsində dəyişiklik aparılması təklif edilir. Belə ki, Məcəlləyə əlavə edilən 13.5-1-ci maddəyə əsasən, Azərbaycanın diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq istəyən Azərbaycan vətəndaşları bu Məcəllənin 13.1-ci maddəsində nəzərdə tutulmuş xəstəliklər üzrə tibbi müayinədən öz vəsaitləri hesabına müraciət etdikləri diplomatik nümayəndəliyin (konsulluq idarəsinin) akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində keçə bilərlər. 13.5-2-ci maddədə isə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq barədə verilmiş ərizəyə bu məcəllənin 13.5-1-ci maddəsində nəzərdə tutulan tibb müəssisələri tərəfindən verilmiş tibbi müayinədən keçdiklərini təsdiq edən sənədin əlavə olunması müəyyən edilir.

Müzakirələrdə çıxış edən komitənin sədr müavini Jalə Əliyeva, üzvləri Sədaqət Vəliyeva, Pərvin Kərimzadə, Sevil Mikayılova, Rauf Əliyev, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev Ailə Məcəlləsinə təklif olunan dəyişikliklərin mütərəqqi xarakter daşıdığını, ailələrin sağlam təməllər üzərində qurulmasına xidmət etdiyini söyləyiblər. Millət vəkilləri həmçinin bir sıra qeydlərini və suallarını da səsləndiriblər.

Tədbirdə iştirak edən Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və hüquqi təminat Baş İdarəsinin Hüquqi təminat idarəsinin rəisi Nizami Quliyev, Xarici İşlər Nazirliyinin Hüquqi Təminat İdarəsinin rəisi Hüseyn Hüseynov, Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin Sosial Normativ Aktlar İdarəsinin aparıcı məsləhətçisi Nərgiz Məmmədli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdir müavini Seymur Məmmədov deputatlar tərəfindən qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Hər iki qanun layihəsi birinci oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ədliyyə naziri Zaqatala rayonunda vətəndaşları qəbul edəcək

Ədliyyə naziri Fərid Əhmədov iyunun 21-də Zaqatala rayonunda Şəki, Qax, Zaqatala və Balakən rayon sakinlərini qəbul edəcək.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, vətəndaşlar nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı iyunun 20-dək Şəki Regional Ədliyyə İdarəsinə (ünvan: Şəki şəhəri, 20 yanvar küçəsi, 94, əlaqə telefonu +994 2424-4-43-19) müraciət edərək, habelə Ədliyyə Nazirliyinin 012-510-10-01 (daxili nömrə: 2104) nömrəli telefonu və **contact@justice.gov.az** elektron poçt ünvanı vasitəsilə qəbula yazıla bilərlər. Həmçinin vətəndaşların nazirliyin elektron xidmətlər portalı vasitəsilə də qəbula yazılmaq imkanı var.

Qəbula gələn vətəndaşlardan şəxsiyyət vəsiqəsini də təqdim etmələri xahiş olunur. Qəbula yazılan şəxslərə qəbulun keçiriləcəyi ünvan və saat barədə əvvəlcədən məlumat veriləcək.

# Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru ilə görüş



İqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşüblər.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizdə enerji səmərəliliyinin, bərpaolunan enerji mənbələrinin artırılması, ənənəvi yanacaq növlərindən istifadənin azaldılmasına diqqət yetirilməsi və digər nəticələr baxımından qazanılan uğurlar diqqətə çatdırılıb.

Tərəflər Azərbaycanın alternativ enerji resurslarından istifadənin intensivləşdirilməsi işində fəal iştirakı, COP29 tədbirindən gözləntilər və iqlim dəyişikliyini tənzimləyən proqramların maliyyələşdirilməsi mexanizmləri barədə fikir mübadiləsi aparıblar.

# Türk Dövlətləri Qiymətləndiricilərinin III Beynəlxalq Forumu keçirilib



Bakıda Türk Dövlətləri Qiymətləndiricilərinin III Beynəlxalq Forumu başa çatıb. Forumda Türk Dövlətləri Qiymətləndiricilər Birlikləri Şurasına (CAATS) üzv olan Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin, qonaq qismində isə Rusiya, Belarus və Gürcüstan qiymətləndirmə birliklərinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edərək, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin məzarı önünə əklillər və gül dəstələri düzüblər.

Mayın 31-də Bakı Konqres Mərkəzində Türk Dövlətləri Qiymətləndiricilər Birlikləri Şurasının (CAATS) İdarə Heyətinin toplantısı keçirilib. Toplantıda qurumun gələcək fəaliyyət istiqamətləri ilə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib. Qarşılıqlı əməkdaşlığın artırılması, türk dövlətləri qiymətləndiricilərinin vahid qiymətləndirmə standartları və vahid məlumat bazasının hazırlanması ilə bağlı işçi qrupları yaradılıb. CAATS-ın 2024-cü il üçün fəaliyyət planı təsdiq edilib. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc Şuranın prezidenti, Türkiyə Qiymətləndirmə Mütəxəssisləri Birliyinin sədri Yaşar Bahçeci vitse-prezidenti, Türkiyə Qiymətləndirmə Mütəxəssisləri Birliyinin icraçı direktoru Emrullah Acar isə İcraiyyə Komitəsinin sədri seçilib.

İyunun 1-də isə Bakı Konqres Mərkəzində Türk Dövlətləri Qiymətləndiricilərinin III Beynəlxalq Forumu öz işinə başlayıb. CAATS prezidenti Vüqar Orucun açılış nitqindən sonra maliyyə nazirinin müavini Azər Bayramov, Kənd Təsərrüfatı Nazirliyinin Mərkəzi Aparatının rəhbəri Azad Cəfərli, Milli Məclisin deputatları Məşhur Məmmədov, Vüqar Bayramov, Aydın Hüseynov, "YapıKredi Bank"ın idarə heyətinin sədr müavini Sevda Səmədova, Türkiyə Qiymətləndirmə Mütəxəssisləri Birliyinin sədri Yaşar Bahçeci, Qazaxıstan Qiymətləndiricilər Palatasının sədri Aydar Kurmanqalıyev, Özbəkistan Qiymətləndiricilər Cəmiyyətinin sədri Nargiza Mirzaraximova, Qırğızıstan Qiymətləndiricilər İttifaqının sədri Sovetbek Zakirov, Türkmənistan Qiymətləndiricilər Cəmiyyətinin sədri Sergey Mineyev, Rusiya Qiymətləndiricilər Birliyinin sədri Yulia Usova, Belarus Qiymətləndiricilər Cəmiyyətinin sədri Svetlana Yurenia, Gürcüstan Qiymətləndiricilər Cəmiyyətinin sədri Giorgi Lejava və Şimali Kipr Türk Cümhuriyyətinin Qiymətləndirmə Mütəxəssisləri Birliyinin sədri Kutay Ramiz çıxış edərək, türk dövlətləri qiymətləndiriciləri arasında əməkdaşlığın artırılmasının əhəmiyyətindən bəhs ediblər. Tədbirdə İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankın, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və digər dövlət qurumlarının rəsmiləri də iştirak ediblər.

Tədbirin panel müzakirələrində Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Rusiya, Belarus və Gürcüstandan olan qiymətləndirmə mütəxəssisləri sektorun mövcud vəziyyəti ilə bağlı təəssüratlarını bölüşüblər. "Ortaq Türk qiymətləndirmə standartları və qiymətləndirmə bazarı" və "Qiymətləndirici peşəsinin inkişafı-beynəlxalq və regional perspektivlər" panellərinin moderator və spikeləri türk dövlətləri qiymətləndiricilərinin vahid qiymətləndirmə standartlarının hazırlanması, beynəlxalq iqtisadi münasibətlər sistemində türk dövlətləri qiymətləndiricilərinin fəal iştirakı ilə bağlı təkliflərini səsləndiriblər. Forum ərzində Türk Dövlətləri Qiymətləndiricilər Birlikləri Şurasının və Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin fəaliyyətindən bəhs edən, eləcə də 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri zamanı əldə edilən tarixi Zəfərlərimizdən, türk dövlətləri başçılarının həmrəyliyin inkişafına verdiyi töhfələrdən bəhs edən video-çarxlar nümayiş olunub.

Tədbir qeyri-rəsmi hissə ilə davam etdirilib və ölkəmizin tanınmış mədəniyyət və incəsənət xadimləri qonaqların qarşısında çıxış ediblər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ənənə davam edir

## İlham Əliyevin sayəsində Bakı Enerji Həftəsi mühüm beynəlxalq tədbirə çevrilib

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev o dövrü xatırlayaraq demişdir: "O vaxt Azərbaycanı demək olar ki, dünyada tanımırdılar. Azərbaycan gənc müstəqil dövlət idi. Xüsusilə nəzərə alsaq ki, müstəqilliyimizin ilk illəri çox ağır keçirdi, Azərbaycanda iqtisadi, siyasi və hərbi böhran hökm sürürdü. Ermənistan torpaqlarımızı işğal etmişdi, 1993-cü ildə vətəndaş müharibəsi başlamışdı. Yəni bütün bu amilləri nəzərə alsaq, bir daha görürük ki, sərginin nə qədər böyük əhəmiyyəti olmuşdur. Çünki o vaxt bu sərgi vasitəsilə Azərbaycan öz neft potensialını dünyaya təqdim etdi. Azərbaycan bəyan etdi ki, o, investisiyalara açıq bir ölkədir. Azərbaycan inkişaf yolu ilə getmək, müasir dövlətə çevrilmək istəyir. Buna nail olmaq üçün əlbəttə ki, ilk növbədə ölkəmizə xarici sərmayə qoyulmalı idi. Xarici sərmayə üçün ən cəlbedici sahə təbii ki, neft sahəsi idi".

Xəzər Beynəlxalq Neft və Qaz Sərgisi ötən illər ərzində ölkəmizlə, neft sənayemizlə birgə inkişaf edərək genişlənib, şaxələnib, yeni sahə və mövzularla əhatə olunub. Budəfəki Bakı Enerji Həftəsi isə həm də bir neçə əhəmiyyətli hadisəyə təsadüf edir. Belə ki, bu il ölkəmizin neft tarixində yeni dövrün əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanmasının 30 ili tamam olacaq. Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin təsis edilməsindən də 30 il ötür. (Lakin əvvəlki illərdə araya koronavirus pandemiyası düşdüyündən növbəti sərgi sayca 29-cudur və yubileyini gələn il qeyd edəcək). Daha bir önəmli fakt odur ki, budəfəki sərgilər və forum Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"nin yaşandığı dövrdə keçirilir. Nəhayət, bu il ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirə evsahibliyi edəcək. Təbii ki, bu əlamətdar hadisələrin hər biri Bakı Enerji Həftəsinin proqramında da öz əksini tapacaq.

Bu dəfə Bakı Enerji Həftəsində 37 ölkədən 300-dək şirkət iştirak edir. Burada Azərbaycanla yanaşı, ABŞ, Almaniya, Avstraliya, Avstriya, Belarus, Belçika, Bəhreyn, BƏƏ, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, Əlcəzair, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, İraq, İsrail, İsveç, İtaliya, Latviya, Qazaxıstan, Qətər, Macarıstan, Monako, Niderland, Norveç, Özbəkistan, Rumıniya, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Sloveniya, Türkiyə, Ukrayna və Yaponiya iştirakçıdır. Bunların arasında İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər tədbirə ilk dəfə qatılır. Daha bir neçə maraqlı fakt ondan ibarətdir ki, builki sərginin iştirakçılarının ümumi sayının 15 faizini yeni şirkətlər təşkil edir. Onların əksəriyyəti Azərbaycanın "yaşıl enerji" sahəsinə yüksək maraq göstərən xarici iştirakçılardır. Sərgi sahəsinin 40 faizi isə tanınmış şirkətlərə, sərgilərin daimi iştirakçılarına məxsusdur.

Bir sözlə, Bakı Enerji Həftəsi enerji sektorunun aktual məsələlərinin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi möhkəm platformadır. Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqli və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları cəlb edir. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər, layihələr və konfranslar enerji sahəsində yeni əməkdaşlıqların qurulmasına, təcrübə mübadiləsinə və yeni inkişaf istiqamətlərinin müəyyən edilməsinə kömək göstərir. Builki sərgidə də Xəzər regionunun əsas neft-qaz layihələri və regionun enerji təhlükəsizliyi məsələləri müzakirə olunacaq. Sərginin əhatə etdiyi mühüm bölmələrə neft və qaz yataqlarının işlənməsi, neft və qazın nəqli və hasilatı, telekommunikasiya və İT, neft və qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovativ texnologiyalar və s. daxildir. Sərgidə süni intellekt, qazma sahəsi, eləcə də neft və qeyri-qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim ediləcək.

"Caspian Power" sərgisində isə beynəlxalq və yerli şirkətlərin energetika və "yaşıl enerji" mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yenilikləri və bununla bağlı təkliflər gündəmdə olacaq. Sərgidə günəş və külək enerjisi, geotermal enerji, istilik energetikası, nüvə enerjisi, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri və elektromobillər, enerji və resurslara qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş etdiriləcək.

Bunu sərgi çərçivəsində təşkil olunacaq bir sıra sessiyalar və panel müzakirələri də göstərəcək. Belə ki, tədbirin keçirildiyi günlərdə "Stereotipləri qıraraq: Enerji həllərinin formatlaşdırılması", Yeni texnologiyalar və rəqəmsallaşma", "İrəliyə doğru yol açmaq: eko-avtomobilin gələcəyi və Azərbaycanda elektromobillərin artan populyarlığı", "Radioaktiv maddələrin nəqli zamanı radiasiya təhlükəsizliyinin təmin edilməsi", "Enerji sənayesində süni intellekt pionerləri", "Qaz dəyər zəncirində karbonun rolu və tendensiyaların gələcəkdə karbon bazarlarını formalaşdırma yolları" və digər mövzular müzakirə ediləcək.

Bakı Enerji Forumunda da Azərbaycan və Xəzər regionu üçün vacib enerji məsələləri gündəmdə olacaq. 600-dən çox nümayəndənin qatılacağı bu tədbirdə "Enerji təhlükəsizliyi və dayanıqlılığa dair beynəlxalq əməkdaşlıq", "Enerji təhlükəsizliyi 2.0", "Xəzər regionunda kəşfiyyat və hasilat imkanları", "Davamlı Enerji: Xəzər regionunda Yaşıl Enerji Potensialı", "Yeni texnologiyalar və rəqəmsallaşdırma", "Qaz dialoqu: Enerji böhranı zamanı qaz təchizatının rolu", "Xəzər regionunda kəşfiyyat və hasilat imkanları", "Neft axınları: Kross-logistika və Azərbaycanda infrastrukturun inkişafı", "Uğurlu enerji keçidində insan kapitalının rolu" kimi mövzular müzakirə ediləcək.

COP29 ərəfəsində Bakı Enerji Forumunun proqramına "Yaşıl dünya naminə. COP29 strateji inkişaf yolları" adlı xüsusi sessiya da əlavə olunub. Sessiyada məruzəçi qismində iştirak etmək üçün digər ölkələrdən xüsusi qonaqlar dəvət edilib.

Ümumiyyətlə, ekoloji problemlər və bu problemlərin Yer kürəsi üçün yaratdığı təhlükələr, onların qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" kimi mövzular Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər proqramında xüsusi yer tutur.

30 il əvvəl keçirilən ilk sərgidə Ulu Öndər özünəməxsus qətiyyət və nikbinliklə nəzərdə tutulan böyük işlərin uğurlar gətirəcəyini bildirirmişdi: "Bu tarixdən böyük fəxrlə danışmaqla, Azərbaycan neftçilərinin bir çox nəsillərinin əməyini yüksək qiymətləndirməklə yanaşı, bu gün eyni zamanda qeyd edirəm ki, indi ölkəmizin neft sənayesinin inkişafında yeni mərhələ açılır. Bu mərhələ Xəzər dənizində neft və qaz yataqlarının işlənməsində Qərbin iri neft şirkətlərinin fəal iştirakı ilə bağlıdır. Əmin edirəm ki, Azərbaycan neftçiləri sizin layiqli tərəfdaşınız olacaq. Ümidvaram ki, Azərbaycana gələn Qərbin neft şirkətləri ölkəmizin neft və qaz sənayesinin bütün tarixi ərzində əldə olunmuş nailiyyətləri həmişə yüksək qiymətləndirəcəklər".

Bu gün Azərbaycan həqiqətən bütün dünyada etibarlı tərəfdaş kimi şöhrət tapıb. Bunun bir təsdiqi də 30 ildir məkanını və məramını dəyişməyən Xəzər Beynəlxalq Neft və Qaz Sərgisi və bu tədbirin genişlənmiş variantı olan Bakı Enerji Həftəsidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistan xarici təsirlərdən çıxarsa, sülh müqaviləsi bağlana bilər

"Qazax rayonunun dörd qeyri-anklav kəndinin bir güllə atılmadan Azərbaycana qaytarılması Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin parlaq qələbəsidir. Bütün təzyiqlərə, təxribatlara baxmayaraq, dövlət başçımızın siyasi iradəsi, qətiyyəti, diplomatik bacarığı bu tarixi qələbəni təmin etdi".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat bildirib ki, Prezident İlham Əliyev hər zaman dövlət və xalqın milli maraqlarını hər şeydən üstün tutub və dəfələrlə bir qarış torpağımızın belə işğal altında qalmayacağını bəyan edib. Sərhədlərin delimitasiyası prosesində atılan bu addımın heç bir vasitəçi olmadan iki dövlət tərəfindən razılaşdırılması da müsbət bir haldır. "Azərbaycan Vətən müharibəsi bitdikdən dərhal sonra Ermənistana sülh müqaviləsi bağlanması üçün beş bənddən ibarət baza prinsipini təqdim etdi. Lakin Fransa başda olmaqla bir sıra Qərb dövlətləri, o cümlədən Avropa Parlamenti Ermənistana təzyiqlər göstərməyə başladı və onu Azərbaycanla müharibəyə sövq etməyə çalışdılar. Bütün bunlara baxmayaraq, Ermənistan rəhbərliyi Prezident İlham Əliyevin regionda yaratdığı yeni reallığı qəbul etmək məcburiyyətində qaldı. Baş nazir Nikol Paşinyan Praqa görüşündə Qarabağı Azərbaycanın tərkib hissəsi olmaqla, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etdi. Bundan sonra Ermənistan tərəfindən sülh müqaviləsinin bağlanması istiqamətində müsbət mesajlar verilməyə başlandı", - deyə o əlavə edib.

K.Əliyeva vurğulayıb ki, Fransa və onun təsiri altında olan bəzi Avropa dövlətləri Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının aparılmasına və Cənubi Qafqazda sülhün bərqərar olmasına hər vəchlə maneə törətməyə çalışırlar: "Düşünürəm ki, 2024-cü ilin sonuna kimi Ermənistan rəhbərliyi xarici qüvvələrin təsirindən çıxacaq və özündə Azərbaycanla sülh müqaviləsi imzalamağa cürət tapacaq. Ermənistan müstəqil yaşamaq və inkişaf etmək istəyirsə, min kilometrlərlə uzaqda yerləşən, müstəmləkə siyasəti yürüdən dövlətlərlə deyil, region ölkələri, xüsusən də Azərbaycanla səmimi qonşuluq və mehriban şəraitdə yaşamalı, iqtisadi, siyasi əlaqələrin qurulmasına üstünlük verməlidir".

Deputat sonda qeyd edib ki, Azərbaycanla sülh müqaviləsi bağlanacağı təqdirdə Ermənistan regional iqtisadi layihələrdə iştirak edərək, bugünkü ağır iqtisadi durumdan çıxa bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan minatəmizləmə təcrübəsini eyni problemdən əziyyət çəkən ölkələrlə bölüşməyə hazırdır

Ölkəmiz son ikiəsrlik tarixinin ən böyük zəfərini qazandı. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur əraziləri Ermənistanın işğalından azad edildi və suverenliyi tam bərpa olundu. Hazırda Ermənistanla delimitasiya işləri davam edir.



Qalib ölkənin vətəndaşı olmağın qürurunu yaşayanlar bu günlərdə də çox böyük, möhtəşəm tarixi hadisələrə şahidlik edirlər. İşğalçıların otuz il ərzində xarabalığa çevirdikləri, yerlə yeksan etdikləri yaşayış məskənlərimiz İkinci Qarabağ müharibəsindən sonra həyata keçirilməyə başlayan geniş və sürətli tikinti, bərpa işləri nəticəsində yenidən qurulur və yurd həsrətli soydaşlarımız geri dönürlər. Təəssüf ki, mina təhlükəsi səbəbindən yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin yurdlarına qaytarılması prosesi ləngiyir.

Ölkəmizin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə, 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib. İkinci Qarabağ müharibəsindən sonra əksəriyyəti mülki olan 361 azərbaycanlı mina qurbanı olub. Onlardan 68-i həlak olub, 293-ü isə ağır yaralanıb. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkib. Onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir.

Mayın 30-da Zəngilanda işə başlayan "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda 3-cü beynəlxalq humanitar minatəmizləmə konfransının iştirakçılarına ünvanladığı müraciətində Prezident İlham Əliyev diqqətə çatdırdı ki, mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtinası, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir: "2020-ci ildən 2023-cü ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılmış, yenidən Azərbaycanın ərazisinə minalar basdırılmışdır. Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür".

Dövlət başçısı İlham Əliyev müraciətində vurğulayıb ki, minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törədir. Bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 140 min hektara yaxın sahənin 119 min 946 mina və partlamamış hərbi sursatlardan təmizləndiyini, lakin minalanmış ərazilərin bundan daha geniş olduğunu qeyd edən Prezident İlham Əliyev minaları yerləşdirməyin asan, onları təmizləməyin isə qat-qat çətin və mürəkkəb proses olduğunu vurğuladı. Azərbaycanın bu məqsədlə qısa müddət ərzində bütün gücünü səfərbər edərək dünyada tətbiq olunan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etdiyini, minatəmizləmə sahəsində səmərəliliyin artırılması üçün tərəfimizdən davamlı şəkildə müvafiq işlər görüldüyünü və hazırda imkanlarımızın əvvəlki illərlə müqayisədə xeyli artdığını bildirdi.

Azərbaycanın bu qlobal problemin həlli istiqamətində səyləri və gördüyü mühüm işlər dünya ölkələrinin və beynəlxalq təşkilatların da diqqətindədir. "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusuna həsr edilmiş konfransın Bakıda davam edən ikinci günündə BMT-nin Sülh Əməliyyatları Departamentində Qanunun aliliyi və təhlükəsizlik institutları üzrə baş katibin köməkçisi Aleksandr Zuyev konfrans iştirakçılarına videomüraciətində Azərbaycan hökumətinə ətraf mühiti mühafizə sahəsində həyata keçirdiyi tədbirlərə, xüsusilə mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətləri 18-ci Dayanıqlı İnkişaf Məqsədi (DİM) kimi təqdim etdiyinə görə təşəkkürünü bildirib: "Azərbaycanın COP29-a evsahibliyi etməsi onu göstərir ki, ölkə ətraf mühitin mühafizəsini ali məqsəd kimi görür. Azərbaycanın minatəmizləmə fəaliyyətini - xüsusilə ANAMA-nın gördüyü işləri yüksək qiymətləndirirəm. Bu yaxınlarda beynəlxalq mina fəaliyyətləri standartlarının yenilənməsi dərc olunacaq. Ümumilikdə, mina problemi ilə ətraf mühit arasında əlaqəni qabartmaq vacibdir".

Azərbaycan Minatəmizləmə Agentliyinin və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə keçirilən III Beynəlxalq Minatəmizləmə Konfransının yekununda çıxışı zamanı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsi müdirinin müavini Nüsrət Süleymanov nəzərə çatdırdı ki, minatəmizləmə sahəsində böyük təcrübə qazanan və onu artırmaqda davam edən Azərbaycan bu təcrübəni eyni problemdən əziyyət çəkən digər ölkələrlə bölüşməyə hazırdır: "Həmin bilik və təcrübəni əldə etmək bizə baha başa gəlib".

Azərbaycanın bu il evsahibliyi edəcəyi COP29-da da bu məsələnin diqqət mərkəzində saxlanılacağını vurğulayan Nüsrət Süleymanov dedi: "COP29-a evsahibliyi edən ölkə kimi biz bu konfransda iqlim dəyişikliyi məsələsi ilə yanaşı, mina problemini də qaldırmağı özümüzə borc bilirik. İqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün mina problemini həll etməliyik. Nyu Yorkda keçiriləcək Gələcəyin Sammitini, Misirdə baş tutacaq Ümumdünya Şəhərsalma Forumunu (WUF12) və Bakının evsahibliyi edəcəyi COP29 tədbirini səbirsizliklə gözlədiyimiz bir vaxtda bu iki çağırış arasındakı qarşılıqlı əlaqəyə diqqət çəkərək onlara qarşı mübarizə aparmaqda qətiyyətliyik".

Mayın 31-də Bakıda başa çatan 3-cü beynəlxalq humanitar minatəmizləmə konfransının yekununda bəyannamə qəbul olunub. Bəyannamədə BMT-nin üzv dövlətlərini minatəmizləmə ilə bağlı, o cümlədən minaların basdırıldığı yerlər haqqında məlumat mübadiləsinə dair müvafiq beynəlxalq öhdəliklərinə əməl etməyə, minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhali üçün ciddi təhlükə yaratdığı, eləcə də ətraf mühitə, ərzaq təhlükəsizliyinə və daha geniş sosial və iqtisadi inkişafa əngəl törətdiyi ölkələrdə milli minatəmizləmə potensialının yaradılmasına və inkişafına dəstək vermək məqsədilə dövlətləri və müvafiq təşkilatları səylərini davam etdirməyə çağırış var.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# *Rusiyalı ekspert:* "Bakı ilə İrəvan arasında sülh sazişinin 2024-cü ilin sonu - 2025-ci ilin əvvəlində imzalanması ehtimalı var"

"Bakı ilə İrəvan arasında 2024-cü ilin sonu - 2025-ci ilin əvvəlində sülh sazişinin imzalanması ehtimalı hələ də mövcuddur. Nəzərə almaq lazımdır ki, hər iki tərəfin danışıqlar prosesinin uzanmaması üçün motivləri var".

Bu sözləri AZƏRTAC-a açıqlamasında rusiyalı politoloq Mixail Neyjmakov Bakı ilə İrəvan arasında sülh sazişinin tezliklə imzalanması perspektivlərini şərh edərkən deyib.



Onun sözlərinə görə, Bakı üçün regionda qüvvələr balansındakı dəyişikliyi rəsmi razılaşma səviyyəsində təsbit etmək vacibdir, erməni tərəfi isə, çox güman ki, təqribən 2024-cü ilin yayından noyabrına qədər olan dövrdə ABŞ-də prezident seçkiləri kampaniyasının həlledici mərhələsi ilə əlaqədar Nikol Paşinyanın komandasının tez-tez müraciət etdiyi Vaşinqtonun diqqətinin Cənubi Qafqazdan yayına biləcəyini nəzərə alaraq, onun üçün manevr məkanının azala biləcəyini başa düşür.

Agentliyin həmsöhbəti əlavə edib: "Hazırkı etiraz kampaniyası Nikol Paşinyan hökumətinin devrilməsinə və ya ən azı bu cür risklərin əhəmiyyətli dərəcədə artmasına səbəb olarsa, danışıqlarda ciddi fasilə yarana bilər. Amma hələ ki, Ermənistanın hazırkı hökumətinin vəziyyətə nəzarəti əlində saxlaması ehtimalı daha yüksəkdir".

Politoloq, həmçinin diqqəti mübahisəli məsələlərin sülh sazişi üzrə danışıqlar üçün risk faktoru olaraq qalmasına, məsələn, regionda nəqliyyat kommunikasiyalarının qarşısının alınmasına yönəldib. "Çox güman ki, bu tematika danışıqlarda ən çətin mövzulardan biri olacaq, hərçənd, yəqin ki, yaxın aylarda bu sahədə kompromisə nail olmaq cəhdləri daha fəal göstəriləcək. Ən azından, Ermənistan parlamentinin spikeri Alen Simonyanın bütün kommunikasiyaların açılması ideyasının böyük əhəmiyyəti haqqında bu yaxınlarda söylədiyi fikirlər və onun əvvəllər Nikol Paşinyan tərəfindən kifayət qədər ciddi şəkildə şübhə altına alınan 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanata istinad etməsi göstərir ki, tərəflər bu məsələ ilə bağlı dialoqu davam etdirməyə hazır olduqlarına dair siqnallar mübadiləsi edirlər", - deyə Mixail Neyjmakov vurğulayıb.

Bununla yanaşı, ekspert əlavə edib ki, atəşkəsə dair qeyd olunan üçtərəfli Bəyanatda nəzərdə tutulan müddəalardan fərqli olaraq, tərəflərin kommunikasiyaların açılması məsələsində yeni formatlar üzərində razılığa gəlməsi ehtimalı daha yüksəkdir.

# Azərbaycan QHT-ləri ABŞ konqresmenlərinə açıq məktub ünvanlayıblar

**İyunun 3-də Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT) ABŞ konqresmenlərinə açıq məktub ünvanlayıblar. AZƏRTAC məktubu təqdim edir:**

"Biz - Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri ABŞ konqresmenlərinə açıq məktub ünvanlamaqla, ilk öncə, onlara ətraf mühit məsələlərinə, Azərbaycanın COP29 sədrliyinə maraq göstərdikləri üçün təşəkkür etmək istəyirik.

535 nəfər üzvü olan ABŞ Konqresinin 26 nəfərlik heyəti (onların içərisində 100 nəfərlik Senatdan cəmi 3 senator, 435 nəfərlik Nümayəndələr Palatasından isə cəmi 23 nümayəndə var) mayın 13-də ABŞ Dövlət katibi Antoni Blinkenə və ABŞ Prezidentinin baş müşaviri John Podestaya məktubla müraciət edərək, Azərbaycanın COP29-a sədrliyini əsassız və absurd ittihamlarla qaralamağa cəhd ediblər.

Bu məktubun cəfəng mahiyyətinin Ağ Evdə dərhal başa düşülməsini onu oxuduqdan sonra həm Blinkenin, həm də Baydenin Azərbaycana ünvanladıqları mesajlarda aydın görmək olur. Dövlət katibi Blinken ABŞ-nin Azərbaycanın COP29-a evsahibliyi etməsini alqışlayıb, Prezident Bayden isə tədbirin uğurla keçirilməsində ABŞ-nin Azərbaycana dəstək verməyə hazır olduğunu bəyan edib.

Bunu nəzərə alaraq, ABŞ konqresmenlərinə bu açıq məktubu heç yazmamaq da olardı. Amma bir halda ki, bir sıra konqresmenlər ətraf mühit məsələlərinə bu qədər həvəs göstərirlər, onlara bəzi tövsiyələri əsirgəməyəcəyik. Hesab edirik ki, bu məsləhətlər son vaxtlar Azərbaycan əleyhinə "nifrət nitqi" tribunasına çevrilən "Financial Times"in redaktorları üçün uydurmaları deyil, real mövzuları tapmaqda da faydalı ola bilər:

1. Faktdır ki, ABŞ dünyada ətraf mühiti ən çox çirkləndirən ölkələr sırasında liderlik edir. Əlbəttə, bunu istəyərək etmir, nəhəng iqtisadiyyata, sənayeyə malikdir. "Bəşəriyyətin ekoloji qayğısını çəkən" konqresmenlər bu təsirləri azaltmaq üçün konkret təkliflərlə, proqram layihələri ilə çıxış edə bilərlər. Lap istəsələr, ABŞ hökumətindən də maraqlanarlar ki, niyə iqlim dəyişmələri ilə mübarizəyə dair ən böyük tədbir olan COP indiyədək bir dəfə də olsun ABŞ-də keçirilməyib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasında "tarixi məsuliyyət" termini sənayeləşmə başlayandan sonrakı (1750-ci ildən indiyə qədər) dövrdə ölkələr tərəfindən atılan tullantıların miqdarını nəzərdə tutur və buna görə də hər bir dövlətin tarixi məsuliyyəti müəyyənləşdirilir. ABŞ-nin karbon emissiyalarının həcminə görə tarixi məsuliyyəti 430 milyard tondan çoxdur. Bu, dünyada ən yüksək göstəricidir. Belə bir ölkənin konqresmenləri müraciətə imza atmazdan əvvəl bu statistikanı cəsarət tapıb məktubun sifarişçilərinə deyə bilərdilər və onda indiki vəziyyətdə qalmazdılar;

2. Dünyada neft istehsalına görə birinci yeri ABŞ tutur. ABŞ gündəlik 13 milyon barrel neft hasil edərək dünyada istehsal olunan neftin həcmində təxminən 15 faizlik paya malikdir. Bura ABŞ şirkətlərinin xarici ölkələrdə hasil etdikləri neft daxil deyil. Görəsən, bu konqresmenlər ümumi daxili məhsulun adambaşına düşən payına görə Avropa İttifaqı ölkələri və digər inkişaf etmiş dövlətlərlə müqayisədə iqlim dəyişmələrinə qarşı tədbirlərə ABŞ-nin daha az maliyyə ayırmasının səbəbi barədə niyə düşünmür və ya niyə buna görə yerli hökuməti sorğulamır?! ABŞ digər inkişaf etmiş ölkələrlə birlikdə inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinə qarşı mübarizə üçün maliyyə və texniki dəstək göstərilməsi üzrə beynəlxalq öhdəliklər götürüb. Lakin ABŞ tərəfindən bu öhdəliklərin heç 10 faizi yerinə yetirilmir. Bu da konqresmenlər üçün yaxşı mövzu ola bilər;

3. Dünyada iqlim dəyişmələri böhranın yaranmasında kömür ən çirkli yanacaq növü kimi müstəsna paya malikdir və istilik effekti yaradan qaz emissiyaları ən çox kömürün istehsalı, saxlanması, daşınması və yandırılması proseslərindən atılır. Təəssüflə qeyd edilməlidir ki, bəşəriyyət qarşısında böyük tarixi məsuliyyət daşıyan ABŞ-də hələ də kömürdən yanacaq kimi istifadə edilir. ABŞ tarixən ən böyük kömür istehsal edən ölkə olub. 2022-ci ildə ABŞ ildə 540 milyon ton kömür istehsal edərək dünyada 4-cü yeri tutub. Azərbaycanda isə tarixən kömür istehsal edilməyib. 10 ildən çoxdur ki, Azərbaycanda mazutdan da istifadə demək olar ki, sıfra enib və hazırda ən təmiz yanacaq kimi ancaq təbii qazdan istifadə edilir. Bu isə beynəlxalq sazişlər üzrə Azərbaycanın öhdəliklərinin yerinə yetirilməsinə (70 faizə qədər) artıq öz misilsiz töhfəsini verib. Yeri gəlmişkən, ABŞ dünyada sıxılmış maye yanacaq istehsalında da lider mövqedədir, bu isə ekoloji baxımdan adi qazdan da çirklidir;

4. OPEC+ platformasının üzvü olan Azərbaycan dünyaya nümunə göstərir ki, məhz neft və qazı zəngin olan ölkələr iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Təsadüfi deyil ki, beynəlxalq ictimaiyyət yekdilliklə COP29-a evsahibliyini bu dəfə məhz Azərbaycana həvalə edib, bu, həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə dünyanın münasibəti və rəğbətidir. Zəngin neft və qaz ehtiyatlarına malik olmağa görə bir ölkəni mühakimə etmək sağlam məntiqə sığmır. Azərbaycanın nefti və qazı Avropa bazarlarına hələ uzun illər lazım olacaq. Azərbaycanın təbii qaz ixracının yarısı - 12 milyard kubmetri Avropa İttifaqı bazarına gedir, yaxın 3 ildə bu rəqəm Avropa Komissiyasının xahişi ilə 20 milyard kubmetrə çatacaq. Azərbaycan qazı Avropada enerjiyə olan tələbatın ödənilməsi üçün qlobal iqlim sistemi ilə sıx bağlı olan qiymətli meşə ehtiyatlarının qırılmasının qarşısını alıb, onları qorumağa imkan verib. ABŞ konqresmenlərinin bu məsuliyyətli davranışa görə Azərbaycana təşəkkür etmək əvəzinə, onu qınamağa çalışması başadüşülən deyil. Sərgilənən qərəzli münasibət həm də Azərbaycanı COP29-da yekdilliklə dəstəkləyən beynəlxalq ictimaiyyətin mövqeyinə açıq hörmətsizlikdir;

5. Azərbaycan yeni enerji strategiyasını COP29-a evsahibliyi məsələsindən xeyli əvvəl elan edib. "Yaşıl keçid" üzrə artıq nəhəng layihələrə başlayıb. Azərbaycanın yaxın 6 ildə günəş və külək enerjisi 5000 meqavat (5 qiqavat) təşkil edəcək. 4 qiqavat həcmində "yaşıl enerji"ni Avropaya ixrac etmək imkanı yaranacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatları isə 157 qiqavatdır. Bu, Azərbaycanın "yaşıl enerji" potensialını izah edir. Maraqlıdır, özlərini "ekologiya cəfakeşləri" kimi aparan ABŞ konqresmenləri niyə bu barədə danışmır?! Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru, Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonaları elan edib. Bununla, əslində, qlobal istiləşməni 2°C-dən aşağıda saxlamaq üçün imkanlar pəncərəsinin daraldığı, 1.5° C-də saxlamaq fürsətinin isə getdikcə tükənməkdə olduğu bir zamanda inkişaf etməkdə olan ölkə kimi Azərbaycan dünyaya müdrik mesaj verir. Mesajın mahiyyəti aydındır: heç bir ölkənin iqlim təhdidlərindən sığortalanmadığı müasir dövrdə qlobal iqlim dəyişmələrinin səbəb ola biləcəyi fəlakətin qarşısı yalnız qlobal həmrəylik, "yaşıl düşüncə" sayəsində alına bilər;

6. İyirmi altı nəfər ABŞ konqresmeni özünü Azərbaycana qarşı fəaliyyəti ilə ad çıxarmış tarixdəki 26 Bakı komissarı kimi aparır. Yeri gəlmişkən, onlardan biri Azərbaycan xalqının qanını axıtmış cəllad Stepan Şaumyan idi. Şaumyan kimi "Nagorno-Karabakh" və guya onun şərəfinə "paytaxt" elan edilmiş "Stepanakert" də artıq yoxdur. Azərbaycan tarixi ədaləti bərpa edib. Əgər müraciəti imzalamış ABŞ konqresmenləri Qarabağın dərdini çəkmək istəyirsə, ilk növbədə, Qarabağda Ermənistan tərəfindən məhv edilmiş təbiət, kəsilmiş ağaclar, çirkləndirilmiş çaylar, yerlə-yeksan edilmiş ekosistemlər haqqında danışsınlar. Biz bu 26 nəfər ABŞ konqresmenini elə ABŞ şirkətinin sərmayəsi ilə bütün beynəlxalq ekoloji normaları, o cümlədən Espoo Konvensiyasını pozaraq Azərbaycan Respublikası ilə sərhədə bitişik ərazidə - Arazdəyəndə metallurgiya zavodu tikiləndə etiraz etdiyini görmədik. Bu gün də Azərbaycanın transsərhəd çayları Ermənistanın qanunsuz dağ-mədən fəaliyyətinin ekoloji fəsadları ilə üzbəüzdür. Biz bununla bağlı da bir dəfə də olsun ABŞ konqresmenlərinin etirazını eşitməmişik. Budur sizin təbiətə münasibətiniz?

Beləliklə, sizin müraciətinizin mahiyyəti bizim üçün aydındır. Siz qlobal iqlim dəyişmələrində əsas tarixi məsuliyyət daşıyan inkişaf etmiş ölkələr barədə formalaşmış mövcud çərçivəni gizlətmək, manipulyasiya edərək dünya ictimaiyyətini çaşdırmaq və əsas günahın neft-qaz istehsal edən kiçik ölkələrin üzərinə qoyulması kimi uğursuz cəhdlər edirsiniz.

Azərbaycanın COP29 üçün şüarı "Yaşıl dünya naminə həmrəy olaq!"dır. Sizi COP29-a dəvət edirik, gəlin, hər şeyi öz gözlərinizlə görün. Azərbaycanın iqlim dəyişmələri ilə mübarizəsini alqışlayan yüzlərlə xarici QHT-lər, vətəndaş cəmiyyəti təsisatları bu günlərdə silsilə bəyanatlar verirlər. Onlar qısa müddətdə COP29-a evsahibliyi edən ölkə kimi Azərbaycanın əldə etdiyi uğurlara qiymət verir və təqdir edir. Elə sizin müraciət etdiyiniz Blinken və Bayden kimi!

Əlavə tövsiyələr lazım olsa, müraciət etməyə çəkinməyin. Biz bundan məmnun olarıq!"

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamentində korrupsiya şəbəkəsinin fəaliyyət göstərdiyi təsdiqini tapıb

"Avropa Parlamenti və korrupsiya sözləri artıq sinonimləşib. Təsadüfi deyil ki, korrupsiya dedikdə ilk ağla gələn Avroparlament olur. Xüsusilə son dövrlər bu parlamentin deputatlarının rüşvət və korrupsiya əməllərində ittiham olunmaları daha geniş miqyas alıb. Burada söhbət milyonlarla avroluq rüşvət və korrupsiyadan gedir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, sözügedən parlament müxtəlif dövlətlərin və qruplaşmaların maraqlarını həyata keçirmək üçün onların ödədikləri böyük pullar müqabilində ən çirkin işlərə də qoşulur: "Xatırlatmaq yerinə düşər ki, Brüssel polisi 2022-ci il dekabrın 9-da Beynəlxalq Antikorrupsiya Günündə Avropa Parlamentində çox acınacaqlı faktlar aşkarlayıb. Məlum olub ki, bu "demokratik" qurumda çox ciddi korrupsiya şəbəkəsi fəaliyyət göstərir".

Deputat söyləyib ki, bu gün Avropa Parlamentində haqq-ədalətdən, obyektivlikdən, insan haqları və onun qorunmasından eninə-uzununa danışan deputatlar, əslində, korrupsiya çirkabına bulaşıblar: "Onlar selektiv yanaşma ortaya qoyur, ayrı-ayrı dövlətlərdən və lobbi qruplarından aldıqları sifarişlər əsasında fəaliyyət göstərirlər. Avropa Parlamentinin deputatları qərəzli münasibət göstərərək bir



ölkədə guya insan hüquq və azadlıqlarının pozulmasına dair ədalətsiz hesabatlar hazırlayır, digər tərəfdən isə cinayətkar ölkələri müdafiə edirlər. Şübhəsiz ki, haqq-hüquqdan uzaq olan bir sıra dövlətlərin cinayət əməllərinə və təxribatlarına göz yummaq riyakarlıqdan başqa bir şey deyil".

Elman Nəsirovun sözlərinə görə, rüşvət və korrupsiya hallarında erməni lobbisinin fəal iştirakı artıq təsdiq olunub: "Milyonlarla vəsaiti belə qara işlərə xərcləyən erməni oliqarxlardan biri də Kaspar Karampetyandır. Bu şəxs almaz qaçaqmalçılığı və digər qeyri-qanuni fəaliyyətlər nəticəsində milyardlarla dollar qazanan, çirkli pulların yuyulması ilə məşğul olan, eyni zamanda həm Ermənistan, həm Yunanıstan, həm də Lüksemburq vətəndaşıdır. Kaspar Karampetyan İrəvanın maraqlarını təmin etmək naminə Avropa parlamentariləri ilə açıq-aşkar sövdələşməyə gedir. Bu məqsədlə qanunsuz bizneslərindən qazandığı pulların bir qismini avropalı deputatlara xərcləyir", - deyə müsahibimiz qeyd edib.

Deputat Avropa Parlamentinin ölkəmizlə bağlı qərəz dolu mövqeyinə də münasibət bildirib. Deyib ki, Vətən müharibəsində qalib gəlmiş Azərbaycan əleyhinə rüşvət hesabına qətnamələr qəbul edən avropalı parlamentarilərin deyəsən başqa işi-gücü yoxdur: "Onlar gecə-gündüz Azərbaycan haqqında düşünür və ədalətsiz qətnamələr qəbul edir, əleyhimizə hədyanlar söyləyirlər. Azərbaycanı hətta bir sıra dövlətlərin daxili işlərinə müdaxilədə ittiham edirlər. Lakin absurd iddiaları ilə özlərini gülünc vəziyyətə salırlar".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Korrupsiyalaşmış Avropa Parlamenti obyektiv qərar qəbul edə bilməz

Avropa Parlamentində yenə də rüşvət qalmaqalı ilə bağlı xəbərlər yayıldı. Təbiidir ki, belə mənfi hallar, qaranlıq məqamlar Avropa institutlarının şəffaflıq səviyyəsinə mənfi təsir göstərir, onu gözdən və nüfuzdan salır. Müxtəlif illərdə baş vermiş belə neqativ hadisələr bu qurumun korrupsiya mənbəyi olduğunu bu günlərdə bir daha beynəlxalq ictimaiyyətə göstərdi.



Avropa Parlamentində rüşvətxorluq məsələsi ilk hadisə deyil. 2022-ci ilin dekabrında polis tərəfindən Avropa Parlamentinin sədr müavini, yunanıstanlı deputat xanım Eva Kaylin həbs edilməsi cəmiyyətdə bu qurum haqqında mənfi rəy və fikirlər formalaşdırdı. Belçikanın federal müstəntiqləri Kayli də daxil olmaqla, saxlanılanları rüşvət qismində külli miqdarda pul və müxtəlif bahalı hədiyyələr almaqla körfəz ölkələrindən birinin (Qərb mediası daha sonra bu ölkənin Qətər olduğunu açıqladı) xeyrinə qanunsuz lobbiçilikdə, AP-də qəbul edilən qərarlara təsir göstərməkdə ittiham etdi. Onu da qeyd edək ki, bu, Eva Kaylinin adının hallandığı ilk rüşvət və korrupsiya qalmaqalı deyil. Avropa Parlamentinə (AP) Yunanıstandan seçilmiş Kayli Avropada fəaliyyət göstərən erməni lobbi qrupları ilə də sıx əməkdaşlıq edib.

Baş verən bu və ya digər hadisələr onu deməyə əsas verir ki, bu qurumda rüşvət və korrupsiya halları artıq adət halına çevrilib. Korrupsiyaya bulaşmış, rüşvət müqabilində alınan sifarişləri yerinə yetirən bu beynəlxalq təşkilat heç vaxt məsələlərə ədalətli yanaşa, düzgün, şəffaf və qərəzsiz mövqe nümayiş etdirib, obyektiv sənədlər qəbul edə bilməz. İllərdir ki, biz bunu Azərbaycanın nümunəsində yaxından görürük.

Avropa Parlamentindəki budəfəki rüşvət qalmaqalı "Russiagate" işi ilə bağlıdır. Məlum olub ki, avroparlamentarilərə Rusiya təbliğatının "Avropanın səsi" saytı vasitəsilə irəlilədilməsinə görə rüşvət verilirmiş. Bununla əlaqədar olaraq Belçika polisi parlamentin ofisində axtarış aparıb. Axtarışlar zamanı bu ölkənin hüquq-mühafizə orqanları Avropa Parlamentinin əməkdaşlarının bu işdə aparıcı rol oynadıqlarına dair əlamətlər aşkarlayıblar. Demokratiyadan, söz azadlığından dəm vuran Avropa Parlamentinin sözçüsü aparılan və hələ də davam edən təhqiqatla bağlı şərh verməkdən imtina edib, ona ünvanlanan suallara aydınlıq gətirməkdən boyun qaçırıb.

ABŞ-nin "Politico" saytı isə rüşvət məsələsinə bir az geniş aydınlıq gətirməyə çalışaraq yazır ki, Belçika polisi ötən çərşənbə günü Avropa Parlamentində reydlər keçirib. Brüsseldəki şəxsi iqamətgahda və Strasburq ofisində aparılan axtarışlar "Avropanın səsi" internet saytında "Rusiya propaqandasını" təbliğ etmək üçün avrodeputatlara pul ödənildiyi iddia olunan "Russiagate" ilə bağlıdır. "Politico" istintaqla tanış olan iki anonim şəxsin sözlərinə əsaslanaraq yazır ki, Belçika polisi daha çox ifrat sağçı Almaniya üçün Alternativ (AfD) partiyasında çalışmış parlament köməkçisinin əlaqələrini araşdırır. İndi həmin şəxs ifrat sağçı hollandiyalı deputat Marsel de Qraffın yanında işləyir. De Qraffın ofisi isə həqiqəti gizlətmək üçün saytın sorğusuna cavab verməyib. Onu da qeyd edək ki, AfD son aylarda başqa qalmaqallarla da üzləşib. Avropa Parlamentinin yüksək rütbəli deputatı Maksimilian Krahın köməkçisinin aprel ayında həbs edilməsi məsələsi dünyanın aparıcı media orqanlarında müzakirə mövzusuna çevrilmişdi. Almaniya hüquq-mühafizə orqanları Jian G. adlı köməkçinin "Çin məxfi xidmətinin əməkdaşı" olduğunu bildirmişdi.

Rüşvət və korrupsiya qalmaqallarında erməni lobbisinin də əli var. Brüsseldə oturan erməni iş adamı Kaspar Karampetyanın Avropa Parlamentindəki korrupsiya və rüşvət mexanizmlərində mühüm rol oynadığı artıq hamıya məlumdur. Erməni mafiyasının Belçikadakı əsas siması hesab olunan Kaspar Karampetyan eyni vaxtda Yunanıstan, Ermənistan və Lüksemburq vətəndaşıdır. Bu şəxs öz biznesini qanunsuz almaz qaçaqçılığı da daxil olmaqla, müxtəlif qeyri-leqal biznes fəaliyyətlərinin hesabına qurub. Adı daha çox mafiya əməllərində hallanan Karampetyan Ermənistanın və özünün biznes maraqlarının müdafiəsi üçün avropalı məmur və deputatlara bu vaxtacan milyonlarla rüşvət paylayıb.

2023-cü ilin əvvəlində isə Avropa Parlamenti ilə bağlı daha bir fakt üzə çıxdı. Məlum oldu ki, Avropa Parlamentinin spikerlərindən biri bahalı hotellərdə, dəbdəbəli restoranlarda keçirdiyi vaxt, təyyarələrdə biznes-salonlarda uçuşlar, şou proqramlarına və idman yarışlarına VIP-lojalarda tamaşa etmək xərclərinin kənar şəxslər tərəfindən ödənilməsi barədə hesabat təqdim etməyib. Almaniya mediasının məlumatında bildirilirdi ki, AP rəsmisi olan Roberta Metsola əri ilə birlikdə Fransanın təmtəraqlı hotelində keçirdiyi gecənin xərcinin Şərab İstehsalçıları Assosiasiyası tərəfindən ödənilməsi haqda məlumatı ictimaiyyətdən, spikeri olduğu qurumdan gizləyib. Bu barədə söz-söhbət çox dolaşsa da, nəticədə spikerə heç bir sanksiya tətbiq edilməyib. Onun Avropa Parlamentinin spikeri vəzifəsində işi üçün şərab istehsalının nə dərəcədə zəruri olması aydınlaşmasa da, məsələdə spikerin ərinin rolu, ümumiyyətlə, tapmacaya çevrildi. Təbii ki, mühüm qalmaqallardan biri kimi yaddaqalan bu hadisə qısa zamanda "ört-basdır edildi". Yəqin ki, bugünkü rüşvət məsələsində də eyni addımlar atılacaq, eyni ssenari təkrarlanacaq. Müxtəlif bəhanələrlə əsl həqiqət ictimaiyyətdən gizlədiləcək.

Göründüyü kimi, Avropa Parlamentində rüşvət vərdiş halına çevrilb. Lobbiçilik isə çoxları üçün gündəlik qazanc mənbəyidir. Avropa Parlamentində baş verən rüşvət halları bir daha sübut edir ki, bu qurumun nümayəndələri üçün şəffaflıq, ədalət, söz azadlığı, demokratiya anlayışları sadəcə olaraq maskadır. Bu maskanın arxasında gizlənən parlamentarilər qiymətli hədiyyələr və külli miqdarda rüşvət almaqla öz maraqlarına xidmət edən qanunları qəbul edirlər. Yəni Avropa Parlamenti nə olduğu kimi görünür, nə də göründüyü kimi olur. Ona görə də korrupsiyalaşmış, əlləri rüşvətə bulaşmış bu qurumun deputatlarının qəbul etdiyi qərarlar reallığı əks etdirmir. Belə maskalı, rüşvətli gedişlə heç vaxt da əks etdirməyəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Fransa Maohi Nui xalqının bütün hüquqlarını tapdalayır

"Müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin təməl prinsipləri kimi qələmə verməyə çalışsalar da, təəssüf ki, neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına məhəl qoymurlar. Hazırda neokolonializmin ən bariz nümunəsi Fransanın timsalında təzahür edir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, bu ölkədə insan hüquq və azadlıqlarına münasibət birmənalı şəkildə fərqli standartlara əsaslanır. Fransanın Əlcəzairdə, Polineziyada, Korsikada, Melaneziyada törətdiyi soyqırımı aktları, Afrika, Cənub Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal etməsi və insanların kütləvi şəkildə qətlə yetirilməsi, şəhər və kəndlərin xarabazarlığa çevrilməsi Fransanın dövlət siyasətinin əsasını təşkil edir. Təkcə Əlcəzairdə bir milyondan çox insanın etnik təmizlənməyə məruz qalması, qətlə yetirilməsi, bu ölkədə böyük fəsadlara səbəb olan nüvə silahlarının sınaqlarının keçirilməsi və beş milyondan artıq minanın basdırılması məhz rəsmi Parisin bəşəri cinayətləridir. Basdırılan minaların xəritəsi bu gün də Əlcəzair hökumətinə təqdim edilməyib. Baxmayaraq ki, Əlcəzair 60 ildən artıqdır rəsmi Parisin müstəmləkəsindən azad olub.

"Fransanın dənizaşırı əraziləri hesab olunan ölkələrdə son illər etirazlar baş qaldırmaqdadır. Həmin ölkələr Fransa zülmündən xilas olmaq və müstəqil dövlətə çevrilmək üçün qəti mübarizəyə başlayıblar. Müstəmləkəçilik siyasətindən, hüquqlarının tapdalanmasından artıq cana doyan yerli xalqlar öz ölkələrində müstəqil yaşamaq, müqəddəratlarını özləri müəyyənləşdirmək istəyirlər. Müstəqillik arzusunda olan, bu yolda minlərlə can qurban verən ölkələrdən biri də Fransız Polineziyasıdır. Bu ölkə yerli dildə Maohi Nui adlandırılır. Fransa daha da irəli gedərək bu ölkənin adını dəyişərək Fransız Polineziyası adlandırıb. Polineziyada yaşayan yerli əhali öz mədəniyyətindən, dilindən uzaqlaşdırılıb. Onlara öz dillərində danışmaq qadağan olunub", - deyə o əlavə edib.

Fransanın Polineziyanın kömür və qazından hər il 25 milyard dollar qazandığını qeyd edən Kamran Bayramov bildirib ki, onlar qaz tələbatının 70 faizini müstəmləkə altında saxladığı ölkələrdən əldə edirlər. Yerli əhali kömür və qazın çıxarılması kimi ağır işlərdə çox az məvacib müqabilində işlədilir. Müstəqillik tərəfdarı olan qrupların üzvləri Fransa tərəfindən həbs edilirlər. Hər ay minlərlə polineziyalı gənc Fransa ordusuna çağırılır və onlar bu ölkənin müstəmləkə siyasətini bərqərar etmək yolunda həlak olurlar.

Deputat vurğulayıb ki, Fransanın Polineziyanı əlində saxlamaq üçün ciddi cəhdlər göstərməsi onun müstəmləkəçi tarixindən, müxtəlif xalqların hüquqlarına laqeyd münasibətindən, həmçinin bu ölkələrin sərvətləri hesabına varlanmaqda davam etmək niyyətindən qaynaqlanır: "Mühüm beynəlxalq sənədlərə və yerli xalqın azadlıq mübarizəsinə baxmayaraq, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan istifadə edərək adalardakı kolonial maraqlarını davam etdirir. Lakin yerli əhalinin qətiyyəti və onlara getdikcə artan dəstək Fransız Polineziyasının müstəqillik mübarizəsində uğur qazanacağına ümidləri artırır".

Deputat diqqətə çatdırıb ki, Fransız Polineziyasında keçirilən nüvə sınaqları nəticəsində 100 mindən çox insanın zərər görməsinə baxmayaraq, cəmi 454 sakinə kompensasiya verilib ki, onlardan yalnız 63 nəfəri polineziyalı olub. Azərbaycan müstəmləkə və məzlum xalqlar üçün hər zaman ümid yeri olub. Suverenlik məsələlərində prinsipial mövqeyi ilə tanınan ölkəmiz yerli əhalinin müstəmləkəçi dövlətlərə qarşı apardıqları mübarizəni ardıcıl olaraq dəstəkləyib. Fransız Polineziyasının "Tavini Huiraatira" Partiyasının baş katibi Viktor Maamaatuaiahutapu Azərbaycandan dekolonizasiya prosesində yardım istədiklərini bildirib. Parlamentdə mayın 30-da keçirilən "Fransız Polineziyasının Dekolonizasiya Hüququ - Çağırışlar və Perspektivlər" mövzusuna həsr edilən konfransda çıxış edən baş katib qeyd edib ki, Azərbaycana kömək almaq üçün gəliblər və onların məşvərətə ehtiyacları var: "Biz siyasi baxımdan gənc xalqıq və Azərbaycanın dəstəyinə ehtiyacımız var. Ədalətin öz yerini tapması üçün yanımızda olacağınıza inanırıq".

Baş katib onu da bildirib ki, Fransa onların səslərini dünyaya çatdırmağa imkan vermir. Bu cəhətdən o, Bakı Təşəbbüs Qrupuna, Milli Məclisin deputatlarına təşəkkür edərək deyib ki, Azərbaycanın dəstəyi onları mübarizələrində daha da ruhlandırıb.

Fransız Polineziyası nümayəndə heyətinin rəhbəri diqqətə çatdırıb ki, Fransadan, sadəcə, xalqının yaşamaq hüququnu tələb edir, haqq səslərini çatdırmağa çalışırlar. Bu gün Fransa hələ də onları eşitmək, dinləmək istəmir, təhdid, qorxu və təzyiq altında saxlayır. Halbuki özü insan haqlarından, demokratiyadan danışır.

K.Bayramov əlavə edib ki, hər zaman sülh tərəfdarı olan Azərbaycan müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizəni dəstəkləyib, bu istiqamətdə öz səylərini əsirgəməyib, Qoşulmama Hərəkatının sədri qismində də müstəmləkəçiliyə qarşı mübarizədə öz prinsipial mövqeyini nümayiş etdirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransa dözülməz müstəmləkəçilik siyasətinə son qoymalıdır

**XXI** yüzillikdə hələ də neokolonialist siysətini davam etdirən Fransanın sərhədlərindən uzaq ölkələrə əl uzatmaq, öz şərtlərini diktə etmək, dünyanın ayrı-ayrı yerlərində məhz öz maraqlarına uyğun nizam yaratmaq cəhdləri beynəlxalq hüquq normaları və ədalət prinsipi ilə daban-dabana ziddiyyət təşkil edir. Bu ölkə dünyada baş verən prosesləri ya anlamır, ya da anlamaq istəmir. Hələ də dünyanın dəyişməsini qəbul etmək istəməyən rəsmi Paris imkanlarından çox böyük xəyallar qurmaqla məşğul olur.

Kütləvi iğtişaşların hökm sürdüyü, insan hüquqlarının kobud surətdə pozulduğu, öz haqlarını tələb edən insanlara qarşı amansız zorakılıqların tətbiq edildiyi bir ölkənin prezidentinin yeni dünya nizamı yaratmaq və ölkəsinin üstünlüyünü təmin etmək barədə xəyallara düşməsi olduqca gülünc görünür.

İllərdir ölkəmizə qarşı ədalət meyarından uzaq, aqressiv mövqe sərgiləyən, hər fürsətdə Azərbaycanı hədəfə alan, BMT-nin Təhlükəsizlik Şurasında əleyhimizə qərəzli qətnamə qəbul etdirməyə çalışan, işğalçı dövlətin faktiki olaraq vəkilliyini öz üzərinə götürüb Senat və Milli Assambleya tərəfindən ölkəmizə qarşı qərəzli qətnamələr qəbul edən bir ölkənin Cənubi Qafqazda sülhyaratma prosesində inadkarlıqla iştirak etmək cəhdinə siyasi avantüradan başqa ad vermək olmur. Hələ Avropanın enerji təhlükəsizliyində getdikcə daha çox yer alan Azərbaycanın dünyada artan rolunu və yerini dərk etməyib ölkəmizə qarşı sanksiyaların tətbiq olunması və digər sərsəm iddiaların səsləndirilməsi Fransa Prezidenti Makronun yalnız qərəzli mövqeyi ilə izah oluna bilməz, bu həm də erməni lobbisinin əlində alətə çevrilən birinin siyasi naşılığıdır.

Fransanın kor inadı bu ölkənin nüfuzuna ağır zərbə olmaqla sürətlə özünütəcrid vəziyyətinə gətirdi. Dünyada baş verən proseslərə təsir etmək imkanını azaltdı. 30 illik Qarabağ münaqişəsi dövründə prosesi tam nəzarətdə saxlayıb, oyunbazlıq edən rəsmi Paris qərəzinin qurbanı olaraq artıq hadisələrə təsir etmək imkanını və nüfuzunu itirərək Cənubi Qafqaz regionu ilə vidalaşmaq zorunda qaldı. Bu hələ harasıdır ki... Emmanuel Makronun ölkəmizə qarşı yanlış və qərəzli mövqeyi bu ölkənin müstəmləkəçilik siyasətinin dünyada ifşa olunması ilə nəticələndi. Faktdır ki, bu gün müstəmləkəçilikdən əziyyət çəkən, zülmə qarşı mübarizəyə qalxan ölkələr ümidlərini Azərbaycana bağlayır. İş o yerə gəlib ki, Fransanın daxili işlər naziri Jerald Darmanen mayın 16-da "France 2" televiziyasına müsahibəsində jurnalistin Yeni Kaledoniya siyasətinə xarici təsirlər, o cümlədən Rusiya, Çin və Azərbaycanın təsirləri ilə bağlı sualına cavab olaraq deyib: "Təəssüf edirəm ki, Kaledoniyanın müstəqillik tərəfdarlarından bəzi liderləri Azərbaycanla sövdələşiblər".

Nə qədər gülünc səslənsə də, fransalı nazir əlavə edib ki, müdaxilə cəhdləri olsa belə, Fransa öz ərazisində suverendir.

Xatırladaq ki, Fransanın öz ərazisi hesab etdiyi Fransız Polineziyası və Yeni Kaledoniya Fransadan 20 min kilometrlik bir məsafədə yerləşir. BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransanın Okeaniyadakı dənizaşırı ərazilərindən olan Fransız Polineziyası 1946-cı ildə BMT-nin "Dekolonizasiya edilməli olan ərazilər" siyahısına daxil edilib. Lakin yerli əhalinin razılığı olmadan 1947-ci ildə Fransız Polineziyası həmin siyahıdan çıxarılıb. Fransız Polineziyasının müstəqillik uğrunda mübarizə aparan qüvvələrinin fəaliyyəti nəticəsində 2013-cü il mayın 17-də Polineziya yenidən BMT-nin "Dekolonizasiya edilməli olan ərazilər" siyahısına salınıb. Bütün bunlara baxmayaraq, Fransa bu qərara hələ də məhəl qoymur. Bu koloniyalar fransız əsarətindən, ayrı-seçkilikdən tam əziyyət çəkir. Fransız Polineziyasında fəaliyyət göstərən "Tavini Huiraatira" partiyasının baş katibi Viktor Maamaatuaiahutapu Fransanın BMT qətnamələrinə məhəl qoymadığını, ölkəsinin təcrid olunduğunu, Fransanın adada hələ də nüvə sınaqlarını davam etdirmək istədiyini bildirib. Viktor Maamaatuaiahutapu xalqının səsini geniş ictimaiyyətə çatdırmaq üçün yaradılan imkana görə Azərbaycana təşəkkürünü ifadə edib. O, siyasi baxımdan gənc xalq olduqlarını və ədalətin bərpası üçün Azərbaycanın dəstəyinə ehtiyac duyduqlarını vurğulayıb. V.Maamaatuaiahutapu qeyd edib ki, apardıqları mübarizə xalqlarının mövcudluğu uğrunda savaşıdır: "Biz Fransadan, sadəcə, xalqımızın yaşamaq hüququnu tələb edirik, haqq səsimizi çatdırmağa çalışırıq. Bu gün Fransa hələ də bizi eşitmək, dinləmək istəmir, bizi təhdid, qorxu və təzyiq altında saxlayır. Halbuki özü insan haqlarından, demokratiyadan danışır. Lakin biz artıq buna inanmırıq. Ona görə də biz buradayıq və inanırıq ki, ədalətə nail olmaq üçün dostların təcrübəsi və dəstəyi ilə Maohi Nui xalqı öz azadlıq mübarizəsini sonadək davam etdirəcək".

Azərbaycanın Xarici İşlər Nazirliyi fransız nazirin ölkəmizə qarşı, eləcə də Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının liderləri arasında iddia edilən münasibətlərə dair səsləndirdiyi əsassız fikirləri tamamilə rədd edib.

Fransadan fərqli olaraq ölkəmizin mövqeyi həmişə birmənalı, şəffaf, açıq olub. Ölkəmizin siyasəti ondan ibarətdir ki, dünyada beynəlxalq hüquq, ədalət prinsipləri öz yerini tapmalıdır. Fransa müstəmləkəçilik siyasətindən imtina etməli, bütün xalqlar azad şəkildə yaşamalı və özfəaliyyət göstərməlidir. Fransa da bu reallıqla barışmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatına Sədrlik etdiyi müddətdə müstəmləkəçiliyə qarşı olduğunu nümayiş etdirərək Bakıda təşkil olunan beynəlxalq dekolonizasiya tədbirlərində Fransa hökumətini Yeni Kaledoniya və dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağıraraq demişdir: "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Leyla Əliyevanın "Seçilmişlər" kitabı nəşr olunub



Tanınmış Azərbaycan şairi Leyla Əliyevanın seçmə şeirlərinin toplandığı "Seçilmişlər" kitabı işıq üzü görüb.

Dövlət Tərcümə Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, kitaba şairin Vətən, həyat, mərhəmət, ölüm, sevgi kimi əbədi mövzuları əhatə edən şeirləri daxil edilib. Müəllifin öz yaradıcılığı ilə bağlı dediyi "Çoxları mənim poeziyamı emosiyalarımla, əhvali-ruhiyyəmlə əlaqələndirir və sanırlar ki, şeirlərim çox kədərlidir. Əslində isə o şeirlərin əksəriyyəti məndən bəhs etmir. Onların çoxu ümumən insan ruhunun mənzərələrini, hal və həyəcanını ifadə edir. Elə bilirəm, şeirlər mənə İlahidən gəlir. Mən sətirləri eşidirəm..." fikirləri ilə açılan kitaba toplanan şeir silsilələri "Vətən", "Həyat nədir, ölüm nə", "Haradasan, dünyanın yaxşı adamı?", "Mənə güc ver, İlahi!", "Gedim bir az ağlayım", "O biri həyatda dönərsən geri" kimi fəsillərdə təqdim olunur. Şeirlər Azərbaycan dilinə kifayət qədər yüksək peşəkarlıq, bədii texnika ilə tərcümə olunub, şairin üslub özünəməxsusluğu, poetik intonasiyası qorunub saxlanılıb.

Nəşrin "Ön söz"ünün müəllifi akademik Nizami Cəfərov, şeirlərin tərcümə müəllifləri Xalq yazıçısı Afaq Məsud, şair-tərcüməçi Salam Sarvan, redaktoru isə yazıçı-tərcüməçi Yaşar Əliyevdir.

# Qazaxıstan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin nümayəndə heyətinin ölkəmizə səfəri başa çatıb



Baş prokuror Kamran Əliyevin dəvəti ilə Qazaxıstan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin sədri Asxat Jumağalinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.

Səfərin növbəti günü nümayəndə heyətinin üzvləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin inzibati binası ilə tanış olublar.

Qarşılıqlı müzakirələr formatında baş tutmuş ikitərəfli görüş zamanı Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş İdarə rəisi Nazim Rəcəbov tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər və bu sahədə mövcud müsbət təcrübə haqqında ətraflı məlumat verilib, habelə, görüş çərçivəsində qurumların fəaliyyəti barədə qarşılıqlı məlumat mübadiləsi həyata keçirilib.

Qonaqların Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binasına səfəri zamanı əməkdaşlar üçün yaradılmış şərait və prokurorluğun fəaliyyəti barədə ətraflı məlumat verilməklə yeni inzibati binanın 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət olunub.

Daha sonra qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanışlıq nümayəndə heyətinin üzvlərində xoş təəssürat yaradıb, həmçinin mərkəzdə yerləşən muzey və eksponatlar barədə onlara ətraflı məlumat verilib.

Nümayəndə heyəti "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət edərək, Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

Bundan başqa, nümayəndə heyəti Hərbi Qənimətlər Parkında olaraq, vətən müharibəsində qüdrətli ordumuzun işğalçılardan tərksilah etdiyi hərbi eksponatlar barədə məlumatlandırılıb.

Səfər başa çatıb.

# Dövlət Gömrük Komitəsi yeni layihə təqdim edib

Dövlət Gömrük Komitəsində (DGK) yeni layihənin təqdimatı olub. Komitə sədrinin birinci müavini Bəhruz Quliyev DGK-nın son dövrlər yeni layihələr hazırlayaraq vətəndaşların istifadəsinə verdiyini bildirib.

Növbəti layihənin bütün elektron xidmətlərin cəmləşdiyi və bir nöqtədən idarə olunduğu "Özünet" layihəsi olduğunu qeyd edən sədrin birinci müavini bu platformaya daxil olan hər bir şəxsin Dövlət Gömrük Komitəsinin elektron xidmətlərindən vahid məkanda istifadə edə biləcəyini vurğulayıb. "Layihə gömrük əməliyyatlarının asanlaşdırılmasına, vaxt və vəsait itkisinin minimuma endirilməsinə, əlçatanlığın artırılmasına şərait yaradacaq", - deyə B.Quliyev bildirib.

Qeyd edək ki, yeni layihədən DGK-nın rəsmi internet səhifəsinin "elektron xidmətlər" bölməsinə daxil olmaqla (customs.gov.az) istifadə etmək mümkündür.

# "Məşğulluğa Dəstək Layihəsi"nin aktiv biznes fəaliyyəti ilə seçilən iştirakçılarına əlavə avadanlıqlar verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində Gəncə-Daşkəsən iqtisadi rayonu üzrə keçirilmiş "Həvəsləndirmə mükafatları" müsabiqəsi yekunlaşıb.

Müsabiqənin qalibi olan 10 benefisiara layihə üzrə qurduqları kiçik bizneslərini genişləndirmək üçün əlavə avadanlıqlar təqdim edilib. İştirakçılara biznes planlarının hazırlanmasında KOBİA tərəfindən yaxından dəstək göstərilib. Müsabiqə layihənin iştirakçısı olan, aktiv biznes fəaliyyəti ilə seçilən, vergi və digər müvafiq ödənişləri ödəyən şəxslərin seçilərək onlara bizneslərini genişləndirmək üçün əlavə dəstək göstərilməsi məqsədi daşıyır.

"Məşğulluğa Dəstək Layihəsi"ndə bir ildən çoxdur ki, biznesini qurmuş benefisiarları müsabiqədə iştirak edə bilər. Belə müsabiqələrin bütün ölkə boyu keçirilməsi planlaşdırılır.

# BVF ilə Azərbaycanın maliyyə sektorunun dayanıqlılığının artırılmasının yeni istiqamətləri müzakirə edilib

Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov Culian Çonun rəhbərlik etdiyi Beynəlxalq Valyuta Fondunun Maliyyə Sektorunun Qiymətləndirilməsi Proqramının (FSAP) missiyası ilə görüşüb.

AMB-dan bildirilib ki, FSAP missiyasının nəticələri görüşün əsas müzakirə mövzusu olub. Həmçinin proqram çərçivəsində maliyyə sektorunun dayanıqlılığının artırılmasını hədəfləyən yeni istiqamətlərin müəyyən olunması ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın qətiyyəti sülh üçün tarixi şəraiti yetişdirib

*Əvvəli 1-ci səh.*

### Müdrik siyasətin nəticəsi

Hazırda Azərbaycanla Ermənistan addım-addım sülhə doğru gedir və artıq sərhədlərin delimitasiyası və demarkasiyasına başlanılıb. İki ölkə arasında bu barədə razılaşmalar əldə edilməsi, Qazax rayonunun 4 kəndinin azad edilməsi də buna bariz nümunələrdir.

Xatırladaq ki, Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin xidmətinin mayın 24-də verdiyi məlumata əsasən, həyata keçirilən delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilmiş və bununla Azərbaycanın Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 $km^2$) Azərbaycana qaytarılması təmin olunmuşdur. Həmin gün Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülmüşdür.

Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsidir ki, 4 qeyri-anklav kənd bir güllə atılmadan, bir itki verilmədən azad edildi. Bununla, 1990-cı illərin əvvəllərində işğal edilən həmin kəndlərimiz də özümüzə qaytarıldı və sakinlərinin yurd həsrəti sona yetdi. Dörd kəndin azad edilməsi Azərbaycanın növbəti zəfəri kimi tariximizə qızıl hərflərlə yazıldı.

Mayın 10-da Şuşada sakinlərlə görüşü zamanı qalib lider İlham Əliyev bu məqamı xüsusi vurğuladı: "Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır".

### Vasitəçilərə ehtiyac yoxdur

Sülh istiqamətindəki bu müsbət tendensiyalara iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunması isə mühüm məqamlardan biridir. Ermənistan və Azərbaycan heç bir vasitəçiyə ehtiyac görmədən birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb bu məsələni həll etdilər.







"İndi biz müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub".

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyev məhz bu məqama vurğu edərək, bölgədə maraqları olan qüvvələrin bu prosesə əslində maneçilik törətmələrinə işarə vurmuşdu.

44 günlük müharibədən sonra başda Fransa olmaqla bəzi Qərb ölkələrinin davranışları da aydın şəkildə ortaya qoyurdu ki, onlar nəinki burada sülhü dəstəkləyir, əksinə buna mane olmaq üçün əllərindən gələni edirlər və hətta münaqişənin yenidən alovlanması üçün Ermənistanı silahlandırırlar.

Məhz Makron hakimiyyətinin sülhpozucu səyləri nəticəsində 2020-ci ildən ötən müddətdə iki ölkə arasında sülh istiqamətində müsbət addımlar atılmamışdı. Paris bir tərəfdən danışıqlarda vasitəçi kimi iştirak etmək üçün dəridən-qabıqdan çıxır, digər yandan da ölkəmizə qarşı qarayaxma kampaniyası aparmaqla məşğul olurdu. Yəni Yelisey sarayı ikili oyun oynamaqla sülhə zərbə vurmaqla məşğul idi. Necə ki, 25 illik vasitəçiliyi dövründə də Fransa eyni məkrli siyasəti yürütmüş, problemin Ermənistanın xeyrinə sonsuzadək sürməsi üçün fəaliyyət göstərmişdi.

Paris eyni ssenarini Vətən müharibəsindən sonra da işə salmış, Qarabağda separatizmin əbədi var olması üçün çalışmışdı, amma "dəmir yumruq" xam xəyallara bir zərbəsi ilə nöqtə qoymuşdu.

### Sülh təşəbbüsləri bəhrəsini verir

Ölkəmizin bölgədə yaratdığı vəziyyət bir çox reallıqları diktə etdi. Qarabağda separatizm yuvasının dağıdılması ilə Rusiya sülhməramlılarının fəaliyyətinə bölgədə ehtiyac qalmadı və onlar Azərbaycan ərazilərini vaxtından əvvəl tərk etdilər. Ehtiyac duyulmadığı üçün bu il aprelin 26-da Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də öz fəaliyyətini dayandırdı.

Bir sözlə, Qarabağ münaqişəsi tarixə qovuşdu, Cənubi Qafqazda yeni bir səhifə açıldı. İndi Azərbaycanla Ermənistan arasında sülhə nail olunması üçün tarixi fürsət yaranıb. Bu, ölkəmizin normallaşma istiqamətində davamlı səylərinin uğurlu bəhrəsini verdiyini göstərir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Makronun uğursuz siyasəti

## Bu, prezidentin partiyasına dəstəyi azaldıb

*Əvvəli 1-ci səh.*

Eyni zamanda fransızların xeyli hissəsi Makronu "varlıların prezidenti" kimi qəbul edir. Caliber.az yazır ki, fransız korporasiyalarının gəlirlərinin nisbi artımı adi fransız sakinlərinin əksəriyyəti üçün nə soyuq, nə də istidir. Xüsusən də Makron, onun partiyası və hökumətinin ardıcıl olaraq sosial ixtisar siyasəti yürütməsi fonunda...

Makron və onun kabinetinin islahatları həm işsizlərə, həm də əhalinin ən az imkanlı təbəqələrinə ağrılı şəkildə zərbə vurub. Fransız ifrat sağçılar uzun müddətdir ki, populyarlığını artırır, lakin belə uğur hələ gözlənilmirdi. 2019-cu ildə keçirilən son Avropa Parlamenti seçkilərində Makron və Le Pen arasında fərq minimal olub. Ancaq bu dəfə ekspertlər "Milli Birlik" partiyasının makronçuları 10-13 faiz fərqlə məğlub edə biləcəyini proqnozlaşdırırlar.

Təşvişə düşən Makron vəziyyətidən çıxmaq üçün təcili tədbirlər görməyə çalışır. Amma o və müşavirləri ifrat sağçıların ideyalarını və ritorikasını qismən təkrarlamaqdan yaxşı bir şey tapa bilməyiblər. Tənqidçilər Makronun son şüarı olan "Fransa Fransa olaraq qalsın" şüarının birbaşa sağ populistlərdən götürüldüyünü iddia edirlər.





Hazırkı prezident Fransa üçün çox aktual olan miqrasiya məsələsinə münasibətində kəskin şəkildə sağa doğru dəyişib. Amma millətçi düşərgədən olan rəqiblərinin meydanında xal qazanmaq cəhdi indiyədək əks nəticəyə gətirib çıxarıb. Belə ki, 2023-cü ilin dekabrında prezidentin immiqrasiya ilə bağlı qanun layihəsi yalnız qaydaların sərtləşdirilməsi ilə bağlı bəndlər daxil edildikdən sonra və sağ müxalifətin dəstəyi ilə qəbul edilib. Bu isə MB-yə "ideoloji qələbə" elan etmək imkanı yaradıb. Eyni zamanda bu, Makronun koalisiyasında böhrana və səhiyyə nazirinin istefasına səbəb olub.

Prezidentin orta təbəqənin gəlirlərini artırmaq vədləri də "İntibah" partiyasına o qədər də fayda vermir. On milyonlarla adi fəhlə, qulluqçu və pensiyaçı məntiqli şəkildə ondan soruşa bilər: "Emmanuel, bəs biz?"

Emmanuel Makron həm də xarici siyasət sahəsinə qayıdış etməyə çalışır və burada, sözün əsl mənasında, ekssentrik təşəbbüslər və bəyanatlar səsləndirməkdən doymur. Məsələn, aprelin 25-də Sorbonnada 1 saat 45 dəqiqə davam edən nitqində o, "böyük regional güclər" tərəfindən "mühasirəyə alınmış" Avropaya təhdidlərdən danışıb. Makronun fikrincə, "azadlığa çıxmış", yəni Rusiya və İran kimi Qərbin nəzarətindən kənarda qalmış "regionlar" Avropa dəyərlərini təhdid edirlər. Bu səbəbdən "Avropanın strateji müdafiə muxtariyyəti", "Avropa raketdən müdafiə qalxanı" və s. proqramlar həyata keçirilməlidir. Makron Trampın Amerikadakı qələbəsindən də qorxur... Lakin Makronun "Böyük Sorbonna nitqi" də partiyasına müsbət dinamika əlavə etməyib. Çünki onun daxildə olduğu kimi, xarici siyasətdə də uğurları yoxdur. Məhz Makronun dövründə Mali, Niger və Burkina Fasonun ECOWAS-dan çıxması ilə "Fransafrika" layihəsinin yeni çöküşü baş verib. Bu günlərdə isə Fransanın Sakit okeandakı Yeni Kaledoniya müstəmləkəsində kanak xalqının üsyanı başlayıb.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Revanşist keşiş dələduzluqda ittiham olunur

Kanada vətəndaşı olan keşiş Baqrat Qalstanyanın rəhbərliyi altında revanşist qüvvələrin Hayastanda keçirdikləri etiraz aksiyaları dünən də davam edib. Onların qarşısını alan ölkə polisi 300-ə yaxın etirazçını saxlayıb. Ermənistanın Daxili İşlər nazirliyinin mətbuat xidmətinin rəsmi məlumatına görə, həmin şəxslər polis əməkdaşlarının qanuni tələblərini yerinə yetirməkdən boyun qaçırıblar.

Hayastan İstintaq Komitəsinin binası yaxınlığında "Vətən uğrunda Tavuş" hərəkatının etiraz aksiyası zamanı keçmiş deputat Gevork Petrosyanla polis arasında dava düşüb. Polis əməkdaşı binanın qarşısında toplaşanları asayiş keşikçilərini təhqir etməməyə çağırıb. "Mən səninlə mübahisə etmək istəmirəm. Mən bu qanunu dəfələrlə öyrənmişəm, siz onu təhrif edirsiniz", - deyə polis Petrosyana müraciət edib. "Sən mənimlə müzakirə etmək üçün çox "kiçik adam"san. Həm yaşı, həm də biliyi ilə kiçik", - deyə keçmiş deputat bildirib. Bundan sonra onların arasında dava düşüb, araya girənlər onları çətinliklə də olsa sakitləşdiriblər.

"Joğovurd" nəşrinə hakim "Vətəndaş Müqaviləsi" partiyasına yaxın mənbələr bildiriblər ki, hakimiyyət keşiş Baqrat Qalstanyanın hər sözünü, hər hərəkətini və planlarını diqqətlə izləyir. Nəşrin məlumatına görə, baş nazir Nikol Paşinyan komanda yoldaşlarını Srbazanın bəyanatları ilə bağlı mütləq əks arqumentlər təqdim etməyə, Baqrat Qalstanyana "keçmişlər"dən biri və məqsədinin keçmiş hərbi xuntanı hakimiyyətə gətirmək olduğunu göstərməyə çağırıb.





Bu arada Baqrat Qalstanyan dələduzluqda ittiham olunub. Bu barədə Kanada erməniləri iddia edirlər. Kanada erməniləri bildiriblər ki, Baqrat kilsə tikintisi üçün toplanmış 12 milyon dolları oğurlayıb və Ermənistana qaçıb. Onlar belə bir dələduzun Ermənistanı fəlakətə apara biləcəyi barədə ermənilərə xəbərdarlıq edirlər.

Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldırmağa çalışanlardan, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alanlardan biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Hayastanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporunun siyasətdəki əsas fiqurlarından biridir. Baqratyan sülh prosesinin və Ermənistan-Türkiyə əlaqələrinin bərpasına qarşı müxalif mövqe ortaya qoyur.

Görünən odur ki, Hayastanda daxili siyasi vəziyyət gərginləşməkdə davam edir. Ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyub.

***Elçin CƏFƏROV, "Azərbaycan"***




# Azərbaycan COP29 çərçivəsində BEA ilə birgə əməkdaşlığı razılaşdırıb





Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazov ilə Beynəlxalq Enerji Agentliyinin (BEA) icraçı direktoru Fatih Birol arasında görüş olub.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə qlobal neft və qaz bazarlarındakı vəziyyət, Avropada qaza tələbat dinamikasına təsir edən faktorlar, eləcə də bərpaolunan enerji istehlakının artması və enerji təchizatında müasir tendensiyalar nəzərdən keçirilib. Azərbaycanın Avropa üçün etibarlı enerji tərəfdaşı olduğunu artıq sübuta yetirdiyini vurğulayan Fatih Birol enerji təchizatında mürəkkəb vaxtlarda Avropaya qaz tədarükündə dəstəyinə görə ölkəmizə təşəkkürünü bildirib. Söhbət zamanı Avropaya qaz ixracının artırılması fossil yanacaqlara münasibət kontekstində dəyərləndirilib.

Görüşdə Azərbaycanın bərpaolunan enerji kursu, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji" zonası kimi inkişafına dair konsepsiyası, "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Türkiyə-Avropa" və "Mərkəzi Asiya-Azərbaycan-Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılması istiqamətində fəaliyyətindən bəhs edilib. "Yaşıl enerji" keçidində, bərpaolunan enerji güclərinin enerji sisteminə inteqrasiyasında önəmli rol oynayan şəbəkənin gücləndirilməsini təmin edən məsələlər müzakirə edilib. Bu xüsusda, enerji saxlanc sistemləri, yüksək gərginlikli sabit cərəyan (HVDC) kabelləri, həmçinin enerji səmərəliliyinin artırılması üzrə fəaliyyətin dəstəklənməsinin və qlobal əməkdaşlığın vacibliyi bildirilib. COP29 çərçivəsində enerji sahəsində fəaliyyət gündəliyində olan məsələlərlə bağlı BEA ilə birgə əməkdaşlıq razılaşdırılıb.

# *Metyu BRAYZA:* "Azərbaycanın COP29-a möhtəşəm evsahibliyi edəcəyi indidən məlumdur"

"Azərbaycan üçün əsl imkan COP29-un sədri olduğu dövrdə bütün dünyaya Azərbaycan haqqında həqiqəti başa salmaq və etnik və dini müxtəlifliyin, tolerantlığın ölkəsi olduğu barədə doğru bir təsəvvür yaratmaqdır".



AZƏRTAC xəbər verir ki, bu sözləri Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, ABŞ-nin Azərbaycandakı sabiq səfiri, beynəlxalq ekspert Metyu Brayza deyib. O, həmçinin Azərbaycanın qonşusu Ermənistan ilə sülh razılaşması ərəfəsində olmasını yüksək qiymətləndirib və bunu Azərbaycan tarixi üçün "həqiqətən vacib bir an" adlandırıb.

"Ötən il sentyabr əməliyyatından sonra Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini tam bərpa etdi. Bu əməliyyatı mülki itkilərə yol vermədən həyata keçirəcəyini bildirmişdi, yalnız hərbi obyektləri hədəf alacağını demişdi və elə də etdi. Ermənistan və Azərbaycan arasında münaqişəni qızışdırmağa və bəlkə də müharibəni yenidən başlatmağa çalışan separatçı rejimi aradan qaldırdı", - deyə o bildirib.

Beynəlxalq ekspert Azərbaycanı COP29-a evsahibliyi edəcəyi üçün də təbrik edib: "Mən Azərbaycanı indi təbrik edirəm, çünki o, qlobal temperaturun 1,5 dərəcədən yuxarı qalxmasının qarşısını almaq və iqlim dəyişikliyi ilə mübarizə aparan səylərə COP29-un ev sahibi olaraq rəhbərlik edir. Fikrimcə, bu, Azərbaycan üçün ən optimist Müstəqillik Günüdür. Çünki Azərbaycan ən əsası, öz torpaqlarını bərpa edib və Qarabağ, ətrafındakı yeddi bölgənin keçmiş sakinlərinin öz evlərinə Böyük Qayıdışını təmin edir".

# *İna KOŞERU:* "COP29 iqlim dəyişikliyi ilə bağlı problemlərin həllinə öz töhfəsini verəcək"

**"Bu il "Şərq Tərəfdaşlığı" təşəbbüsü regionunda çox vacib beynəlxalq konfrans Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. Bu tədbir Bakıda təşkil olunacaq. Biz azərbaycanlı həmkarlarımızın uğuruna sevinirik. Biz bilirik ki, bu cür mötəbər tədbiri üzərinə götürmək nə dərəcədə məsuliyyətli və çətin işdir. Bakı beynəlxalq səviyyədə bütün ölkələrin nümayəndələrini qəbul edəcək. Mən Azərbaycan dövlətinə, oradakı həmkarlarımıza bu işdə uğurlar arzulayıram".**



Bu sözləri AZƏRTAC-a eksklüziv müsahibəsində Moldova Parlamentinin Xarici siyasət və Avropaya inteqrasiya komitəsinin sədri İna Koşeru söyləyib.

COP29 tədbirinin olduqca vacibliyini və əhəmiyyətini vurğulayan komitə sədri deyib: "XXI əsrdə yaşayırıq, bizim üçün ən böyük problem iqlim dəyişikliyidir. Dünyada iqlim dəyişikliyi, su resurslarının azalması dünya ölkələrinə yeni prinsiplərin, texnologiyaların tətbiqini təşviq edir. Yəni iqlim dəyişikliyinin qarşısını almaq üçün yeni texnologiyalar tətbiq edilməlidir. O texnologiyalar ki, ilk növbədə, istixana qazlarının azalmasına səbəb olsun. Bu, enerji sahəsində baş verməlidir. Qazıntı yanacağı, o cümlədən kömür azaldılmalıdır, alternativ, "yaşıl enerji" mənbələrindən istifadə edilməlidir. Enerji sektoru iqlim dəyişikliyinin əsas amillərindən biridir. Əgər istixana qazlarının azalmasını təşviq edən texnologiyalar tətbiq olunsa, meşə örtüyü artırılsa, - bu, Moldovada da çox aktualdır, - iqlim dəyişikliyinin qarşısı alınar".

İna Koşeru hesab edir ki, Bakıda keçiriləcək COP29 qeyd olunan problemlərin müzakirəsi üçün əla platformadır və bunların həllinə öz töhfəsini verəcək.

"Azərbaycan dövlətinə təşəkkür edirik ki, bu cür vacib beynəlxalq tədbirin keçirilməsinə razılığını verib. Biz bu gün iqlim dəyişiklikləri ilə bağlı problemləri həll etməsək, gələcəkdə uşaqlarımız ciddi təhlükələrlə qarşılaşa bilərlər", - deyə Moldova Parlamentinin Xarici siyasət və Avropaya inteqrasiya komitəsinin sədri vurğulayıb.

# COP29 birlik və həmrəylik körpüsü olacaq




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi qlobal tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi dünyanın ölkəmizə artan marağının və etimadının ifadəsidir. Bu, dünya dövlətləri və birlikləri tərəfindən dəstəklənir, təqdir olunur.**

COP29-un yaddaqalan olacağı, uğurlu nəticələr əldə ediləcəyi kimsədə şübhə doğurmur. Sessiyanın başlanacağı günə beş ay qalıb və iştirakçı dövlətlər xeyli vaxtdır COP29-a hazırlaşır, gündəliyini müzakirə edirlər. Təcrübə göstərir ki, belə tədbirlər dövlətlər arasındakı birliyin və həmrəyliyin göstəricisi kimi tarixin yaddaşına hopur. Təsadüfi deyil ki, COP29-un şüarı "Yaşıl dünya naminə həmrəy olaq!"dır. Bu sessiya xarici dövlətlərin və beynəlxalq birliklərin ölkəmizə artan marağının və etimadının ifadəsi kimi beynəlxalq əhəmiyyətli tədbirlərin məntiqi davamıdır. Tədbir həm də Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının irəliləməsinə müsbət təsir etməsilə fərqlənir. Siyasətçilərin və politoloqların qənaətinə görə, sülh müqaviləsinin yaxın zamanlarda bağlanması mümkündür.

Tədbir noyabrda baş tutacaq, amma bu gün dünyanın gözü Bakıdadır. Demək olar ki, hər həftə iştirak edəcək dövlətlərin nümayəndələri Bakıya gəlir, eləcə də COP29-un azərbaycanlı təmsilçiləri qarşılıqlı olaraq xarici dövlətlərə səfərlər edirlər. Belə səfərlərdə müzakirə olunan məsələlər ölkələr arasında əməkdaşlığı gücləndirmək, "yaşıl dünya" üçün birləşmək, "yaşıl iqtisadiyyat"ı inkişaf etdirmək baxımından əhəmiyyətlidir. Bütün dünya görür ki, Azərbaycan alternativ enerji mənbələrinə keçid etməkdə iradəli addımlar atır. Dəyişim göz qabağındadır, bu sahədə əldə olunan uğurlarda dünyanın aparıcı şirkətlərinin də payı var.

COP29 platforması Azərbaycanın "yaşıl enerji" sahəsindəki iradəsinin potensialını gücləndirəcək. Bunu BMT kimi nəhəng bir qurum da təsdiq edir: "Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkə üçün böyük uğurdur. BMT COP29-un sədrliyinə geniş miqyasda dəstək verir". BMT-nin Mətbuat xidmətinin məlumatında daha sonra deyilir: "BMT İqlim Dəyişmələri (BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası - UNFCCC) Katibliyi COP29-un sədrliyinə danışıqlar, əməliyyatlar (konfrans idarəçiliyi və logistika) və maraqlı tərəflər nöqteyi-nəzərindən texniki dəstək göstərir. Bununla yanaşı, BMT İqlim Dəyişmələri BMT-nin qurumları ilə birlikdə COP29 komandasına və digər tərəflərə danışıqların aparılması da daxil olmaqla, potensialın artırılması dəstəyini koordinasiya edir. Ölkə səviyyəsində isə BMT komandası Azərbaycanda iqlim fəaliyyətlərini mobilizə etmək üçün bütün maraqlı tərəflərlə işləyir. Buna misal olaraq, BMT-nin Azərbaycan nümayəndəliyi tərəfdaşlarla birlikdə iqlim dəyişikliyi və ədalətli keçidlə bağlı ölkə boyu dialoq və fəaliyyətə təkan vermək üçün "29 iqlim müzakirəsi: COP29-a gedən yol" adlı təşəbbüs həyata keçirib".

Təkcə dövlət başçıları deyil, dünya ictimaiyyəti, qabaqcıl ölkələrin QHT rəhbərləri gündəlik fəaliyyətlərində COP29-un əhəmiyyətini vurğulayırlar. Bu günlər ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Niderland, İtaliya, Macarıstan, Avstraliya, Pakistan, Nigeriya, Əlcəzair, Kamerun, Meksika, Hindistandan olan QHT-lər və ictimai fəallar Azərbaycan Milli QHT Forumuna məktub ünvanlayaraq, COP29-a evsahibliyi edən ölkəmizə güclü dəstək ifadə ediblər. 30 QHT rəhbərinin imzaladığı müraciətdə deyilir: " İnklüziv və birgə iqlim fəaliyyətinin tərəfdarları kimi, biz QHT-lərin COP29-da iştirakının vacib əhəmiyyətinə qəti şəkildə inanırıq. QHT-lər öz icmaları ilə dərin əlaqələri olan maraqlı tərəflər kimi çıxış edərək COP29-da müzakirə və qərar qəbuletmə proseslərini zənginləşdirən özünəməxsus fikir, təcrübə və perspektivlər təklif edir. Onların iştirakı iqlim böhranını həll etmək üçün kollektiv öhdəliyi gücləndirərək sahiblənmə, məsuliyyət və həmrəylik hissini gücləndirir. Planetimiz üçün ümidli gələcəyə dəstək səylərində Azərbaycan Milli QHT Forumu, COP29-un Sədrliyi və Azərbaycan ilə həmrəy olduğumuzu bəyan edirik".

Azərbaycanla həmrəy olan daha bir qurumun başçısı - Beynəlxalq Enerji Agentliyinin (BEA) rəhbəri Fatih Birol deyib ki, ekoloji təmiz enerjiyə qlobal investisiyalar əhəmiyyətli dərəcədə artır, lakin inkişaf etməkdə olan ölkələrə ayrılan vəsaitlərin həcmi 2015-ci ildən bəri ümumi məbləğin 15 faizi səviyyəsində dəyişməz olaraq qalır. Hazırda bu məbləğ təxminən 250 milyard dollar təşkil edir: "Noyabr ayında Bakıda keçiriləcək COP29 konfransı ərəfəsində ölkələr iqlim proqramlarının illik maliyyələşdirilməsinin yeni detallarını hazırlayırlar ki, bu da ən azı yüz milyard dollar təşkil edəcək. Bu mövzu BMT səviyyəsində mübahisələrə səbəb olub, çünki 2009-cu ildə qarşıya qoyulan və yoxsul ölkələrə 2022-ci ilə qədər ildə 100 milyard dollar ayırmağı nəzərdə tutan əvvəlki iqlim maliyyələşdirmə hədəfə nail olunmayıb".

İtaliya Asiya İnstitutunun (ISIA) və Siena Universitetinin geosiyasi analitiki Fabio İndeonun fikrincə, COP29 Azərbaycanın enerji keçidinə sadiqliyini göstərmək üçün mühüm platforma olacaq. Bu baxımdan, ölkədə istehsal olunan elektrik enerjisinin Cənub-Şərqi Avropa bazarlarına nəqlini nəzərdə tutan "yaşıl enerji" layihəsi böyük əhəmiyyət kəsb edir. Azərbaycan Avropanın idxal coğrafiyasının şaxələndirilməsi strategiyasının həyata keçirilməsi üçün səylərini dəstəkləməyə hazır olduğunu nümayiş etdirən etibarlı təchizatçı kimi "köhnə qitə"nin enerji təhlükəsizliyində əsas tərəfdaşıdır.

Bu günlərdə UNESCO-nun mənzil-qərargahında Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr edilmiş "Təhsil vasitəsilə insanları və planeti birləşdirək" adlı tədbir də keçirilib. Tədbirdə məktəblərdə və icmalarda ekoloji maarifləndirmənin artırılması, davamlı inkişaf üçün ömür boyu təhsilin həyata keçirilməsi və gələcək çağırışlara hazırlıq strategiyaları, eləcə də COP29-a dair fikir mübadiləsi aparılıb. Ümumilikdə BMT-nin, UNESCO-nun və çoxsaylı dövlətlərin COP29-un Azərbaycanda keçirilməsinə müsbət yanaşmalarına əsasən demək olar ki, ölkəmiz qlobal tədbirin tələblərinə cavab verir. Azərbaycan iqlim dəyişikliyi və təbii fəlakətlərə qarşı müqavimət göstərmək üçün "yaşıl dünya"ya keçid etməyə tam hazırdır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Ukrayna COP29-da fəal iştirak edəcək

Bu barədə Ukraynanın Azərbaycanda yeni təyin olunmuş səfiri Yuri Qusev Bakıda keçirilən mətbuat konfransında deyib.

"Ukrayna Azərbaycanın bu il keçiriləcək İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək ölkə olaraq seçilməsini alqışlayır. Dünya səviyyəsində bu cür irimiqyaslı tədbirin Azərbaycanda keçirilməsi ölkənin beynəlxalq ictimaiyyətdə rolunun getdikcə artdığından xəbər verir. Bu barədə Ukraynanın ekologiya nazirinin ötən həftə baş tutan səfəri çərçivəsində bəhs olunub. Azərbaycan Respublikasının ekologiya naziri ilə aparılan danışıqlarda COP29-un Bakıda keçirilməsinin təfərrüatı müzakirə edilib. Ukrayna bu tədbirdə fəal iştirak etmək niyyətindədir", - o deyib.

Səfir Ukrayna və Azərbaycanın energetika sahəsində irimiqyaslı layihələrin icrası kimi strateji məqsədləri olduğunu qeyd edib.

"Azərbaycanla əməkdaşlığın enerji sektorunda irimiqyaslı layihələrin icrasına yönəlmiş strateji məqsədləri var. Xüsusən Ukraynanın "Cənub qaz dəhlizi"ndə perspektiv iştirakı mühüm istiqamətdir. "Yaşıl enerji" və bu sahədə əməkdaşlığa dair geniş imkanlarımız var", - deyə o əlavə edib.



Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. İki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək.

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir.

Konvensiyanın tərəfləri 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

## Vətənpərvərlik hissləri ləyaqətin təntənəsidir

**Qoynunda dünyaya göz açdığımız və ömür sürdüyümüz Vətən torpaqlarını qorumaq hamının müqəddəs borcudur. Çünki Vətən uludan ulu olan babalarımızın bizə ən qiymətli əmanətidir. Onlar bu torpaqları yadelli işğalçılardan göz bəbəkləri kimi qoruyaraq gələcək nəsillərə yetirmişlər. Bu çətin və şərəfli yolda igidlik və qəhrəmanlıqlar göstərmişlər. Ona görə də tariximizin hansı səhifəsini vərəqləsək, orada babalarımızın igidlik və qəhrəmanlıqlarını görürük və daim bununla fəxr edirik.**




Vətənə, torpağa məhəbbət hər birimizin qəlbində kiçik yaşlarından yaranır. Böyüdükcə, yaşa dolduqca formalaşan vətənpərvərlik hissləri daim qəlbimizdə çövlan edir. Bu ülvi hiss yurdumuzu sevməyə, bizi onun uğrunda mübarizəyə hazır olmağa sövq edir. Vətənpərvərlik insanın Vətəninə sevgisindən və sədaqətindən yaranır. Hər bir ölkənin sabahı onun vətəndaşlarının milli ruha və kökə dərindən bağlılığından, ən əsası isə vətənpərvərliyindən asılıdır. Azərbaycan xalqının vətənpərvər, torpaq uğrunda mübarizəyə, döyüşə hazır olan övladları bütün zamanlarda vətəndaşı olduğu ölkənin çətin və keşməkeşli günlərində öz sözlərini deyiblər.

Vətən sevgisi, yurd sevgisi bütün dövrlərdə vətənpərvər insanları bir məslək, bir amal ətrafında birləşdirib. Vətənə məhəbbət hər kəsin torpağa qəlbən, ruhən mənəvi bağlılığı deməkdir. Bu mənəvi bağlılıq zaman-zaman insanları zəfərlərə qovuşdurur. Onu daim igidliyə, qəhrəmanlığa, uğurlu sabahlara səsləyir. Vətənpərvərlik hisslərinin tarixi kökündə min illər boyu yaşanıb möhkəmlənmiş, torpağına, dilinə və adət-ənənələrinə bağlanmış ülvi duyğular dayanır.

Ulu Öndər Heydər Əliyev vətənpərvərlik hissini yüksək dəyərləndirərək çox müdrikcəsinə demişdir: "Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirmək təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir".

Vətəni qoruyanda, sevəndə Vətən olur, deyirlər. Ulularımız da vətənpərvər olublar, Vətənə sonsuz məhəbbət bəsləyiblər. Qəlbən, ruhən hər zaman yurda bağlı olan əcdadlarımız Azərbaycan uğrunda döyüşüblər, vuruşublar, daim mübarizə aparıblar. Həmişə də zəfər və qələbə qazanıblar.

Bugünkü nəsillər də babaların şərəf dolu döyüş yollarını uğurla davam etdirərək yurdumuzu göz bəbəkləri kimi qoruyurlar. Qəhrəmanlıqdan və igidlikdən yoğrulmuş vətənpərvərlik ənənələrini şərəflə davam etdirirlər. Cəsarətləri ilə qəhrəmanlıq tariximizə yeni səhifələr yazırlar. 2016-cı il aprelin 1-də erməni işğalçıları yurdumuza hücum çəkəndə vətənpərvər oğullarımız bir göz qırpımında silaha sarılaraq torpaqlarımızın müdafiəsinə atıldılar. Vətənimizin mərd övladları misilsiz igidlik göstərərək düşməni geri oturtdular. Dörd gün davam edən uğurlu döyüşlər nəticəsində erməni işğalçılarına sarsıdıcı zərbələr vuruldu.

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda vətənpərvər oğullarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin çağırışına səs verərək yurdumuzun xilasına, müdafiəsinə atıldılar. Ürəyi Vətən eşqi ilə döyünən cəsur döyüşçülərimiz müharibənin elə birinci günündən erməni işğalçılarına sarsıdıcı zərbələr vurdular. 30 ilə yaxın davam edən işğala 44 gün ərzində son qoyuldu. Ali Baş Komandan-ordu-xalq birliyi, bərabərliyi öz sözünü dedi. Erməni işğalçıları üzərində tarixi qələbə qazanıldı. Bu qələbə rəşadətli Azərbaycan Ordusunun, qətiyyətli Ali Baş Komandan İlham Əliyevin və milli-mənəvi dəyərləri ilə dünyaya nümunə olan Azərbaycan xalqının şanlı qələbəsidir.

Çox gözəl deyilib ki, torpaq - əgər uğrunda ölən varsa, Vətəndir. İkinci Qarabağ müharibəsində qazanılmış zəfər bir daha göstərdi ki, əsrlər, illər keçsə də, xalq öz Vətəninin, dövlətinin arxasındadır. Torpaqlarımızın azadlığı uğrunda vətənpərvər, cəsur oğullarımız döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərdilər. Azərbaycan xalqı Vətən müharibəsinin davam etdiyi günlərdə üçrəngli bayrağına sarılıb "Vətənə canımız fəda" - deyərək onun müdafiəsinə atıldı. Qələbəmiz naminə çalışdı, zəfərimiz naminə vuruşdu. Bax, budur vətənpərvərlik, bax, budur Vətənə olan sonsuz sevgi! İkinci Qarabağ müharibəsi bir daha göstərdi ki, vətənpərvər övladı, igid vətəndaşı olan ölkə heç vaxt basılmaz. O torpaqlara heç vaxt düşmən ayağı dəyməz.

Doğma yurdumuz Azərbaycan hamımızın ana vətənidir. Onu yadelli işğalçılardan qorumaq, gələcək nəsillərə əmanət etmək müqəddəs borcumuzdur. Bu borcu yerinə yetirmək üçün hamımız vətənpərvər olmalıyıq, vətənpərvər doğulmalıyıq. Vətən sevgisi, Vətənə məhəbbət insanın daxilindən, qanından gələn ali bir hissdir. Vətənpərvərlik duyğuları vətəndaş tərbiyəsinin əsasıdır. Vətənpərvərlik hissi həm də ləyaqətin və zəfərin təntənəsidir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

## Xatirələrdə cəsur döyüşçü kimi qalıb



**Otaqda hər şey Elnurun öz əli ilə qoyub getdiyi kimi yerində durur. Üstü açıq çarpayı, fotoşəkillər, müharibəyə yola düşməmişdən bir gün qabaq geyindiyi paltarlar və fərdi əşyaları...**
**Pəncərənin qarşısında hərəkətsiz halda dayanıb əlində şəhid oğlunun şəklini tutan ana gözlərini qırpmadan uzanıb gedən yola baxırdı. Sakit-sakit yağan yağış pəncərəyə çırpılıb göz yaşı kimi süzülürdü:**

- Elnur cəbhəyə yola düşən gündən bu pəncərənin qarşısında dayanıb yollara baxıram. Mənə elə gəlir ki, Zəfər bayrağımıza bükülüb gələn Elnur deyildi, qələbə xəbərimiz idi. Üstündən illər keçdikcə dərdin böyük olduğunu daha çox anlayıram... Elnur balamın şəhid olmasını qəbul edə bilmirəm. Sanki oğlumu cəbhəyə aparan bu yollar onu bir gün də mənə sağ-salamat qaytaracaq. Oğlumla fəxr edirəm. Şəhid anası olmaq həm kədərli, həm də qürurlu bir hissdir. Düşünəndə təsəlli tapırsan ki, oğlun canını müqəddəs Vətən yolunda qurban verib. Vətən durduqca, xatirələrdə də olsa yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Elnurun şəhid olduğu məkana getmişdim. O yerləri ziyarət edəndə qəribə hisslər keçirdim. Mənə elə gəldi ki, Elnur da orada bizimlə idi, bizi görürdü... Hər gün Şəhidlər xiyabanına onu ziyarət etməyə getsəm belə, mən oğlumun yolunu gözləyirəm. Elə bilirəm Elnurum gülə-gülə evimizə gəlib boynuma sarılacaq və "ana, mən qələbə ilə qayıtdım", - deyəcək. Qoy, Azərbaycan bir də müharibə görməsin. Ölkəmiz bir daha şəhid verməsin.

Allahverdizadə Elnur Əli oğlu 1995-ci il mayın 19-da Sumqayıt şəhərində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra elə həmin il Bakı Slavyan Universitetinin Tərcümə fakültəsinin çex-Azərbaycan dili ixtisasına qəbul olunub. BSU-nu bitirdikdən sonra 2016-2017-ci illərdə artilleriya bölüyündə hərbi xidmət keçib.

Hərbi xidmətdən qayıdan Elnur Allahverdizadə səs rejissoru kimi "İlk media", "Picmus Production" ilə əməkdaşlığa başlayıb. "Barama" və "Atılmışlar" seriallarının, bir çox reklam çarxının səs rejissoru olub. Xüsusilə, "Son iclas" bədii filminin bum operatoru, "Buğlama" komediya serialının səs operatoru olub.

Müzəffər Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərimizin azad edilməsi üçün zəfər yürüşünə çıxanda Elnur könüllü olaraq sentyabrın 29-da cəbhəyə yollanıb. Oktyabrın 4-dən topçu kimi döyüşə qatılan Elnur Ağdamın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə iştirak edib. Artilleriya qüvvələrimizin qəhrəman döyüşçüsü Elnur Allahverdizadə noyabrın 7-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman düşmən artilleriyasının mərmisinə tuş gəlib. Topçu Elnur 2020-ci il noyabrın 8-də Sumqayıtda Şəhidlər xiyabanında dəfn olunub.

Xalqımızın vətənpərvər oğlu, qəhrəman döyüşçü Elnur Allahverdizadə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Göz yaşlarına hakim ola bilməyən atası Əli kişi söhbətə qoşulur:

- Dərddən qubar bağlayan ürəyim sözlə doludur. Danışmaq, ürəyimi boşaltmaq istəyirəm. Elə bilirəm, Elnur haqqında bir az yüküm yüngülləşər. Ancaq alınmır, dərd içimi parçalayır. Var olsun xalqımızı, sağ olsun Elnurun dost-tanışları, yoldaşları. Aradan dörd ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu gün də bizi tək qoymurlar, axtarırlar, bizə gəlib Elnurla bağlı xatirələrindən danışırlar. Bu gün şükür ki, firavan ölkədə yaşayırıq. İnşallah ölkəmiz, dövlətimiz bundan da gözəl, yaxşı olacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin, Ali Baş Komandanımızı qorusun!

2020-ci ilin noyabrın 7-də Vətənin azadlığı uğrunda canını qurban verən şəhidin 2021-ci ildə Sumqayıt şəhərində xatirə lövhəsi açılıb. Məzarı vətənsevər gənclərin ziyarət yeridir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Yurdu yaşadan qəhrəmanlar

## Zülməti yaran işıq

### Vətənin igid oğlu bütün cəbhəni ürəyinin başında Azərbaycan bayrağı ilə keçdi



**O, gərəkli bir missiya - insanlara, məkanlara, texnologiyalara işıq, nur paylamaq üçün yaranmışdı. Yaxşı bilirdi ki, nura aydınlıqda yox, daha çox qaranlıqda ehtiyac var, ətrafa ziya yaymaqdan ötrü mütləq alatoranı dəf etmək lazımdır. Elə bu düşüncəsinə, anlayışına, mükəmməlliyinə görə də öncə ətrafına - canından artıq sevdiyi Azərbaycanın 20 faiz ərazilərinə çökən otuzillik zülmətin üzərinə yeridi.**

Beləcə, bu möhtəşəm yürüş 43 gün - Şuşaya qədər, qələbəyədək çəkdi. Müqəddəs torpaqlarımızı düşmənin pəncəsindən xilas etməklə qaranlıqları nura boyayıb şəhadət məqamına yüksələndə isə sol cibində - doğma xalq, yurd sevgisi ilə dolu ürəyinin üstündə üçrəngli bayrağımız tapıldı...

1993-cü il iyunun 16-da Ağstafa rayonunun Həsənsu kəndində ziyalı ailəsində dünyaya göz açan Elçin Həsənli uşaqlıqdan elmə, kitablara maraq göstərib. Atası aspiranturaya qəbul olunduğuna görə ailəlikcə paytaxta köçdüklərindən, Bakının Nəsimi rayonundakı 211 saylı tam orta məktəbdə oxuyub. 2010-2014-cü illərdə Azərbaycan Texniki Universitetinin Elektrotexnika və energetika fakültəsində təhsil alıb. 2017-ci ildə həmin təhsil ocağının magistraturasını "Elektrik mühəndisliyi" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. İtaliyanın Roma şəhərində UNİNETTİNO Universitetində "Bərpaolunan enerji qaynaqları" üzrə kursda iştirak edib, sertifikat alıb. "Azərenerji" Şirvan ASC-nin mühəndisi, Sabirabadda "ASAN Xidmət"in əməkdaşı kimi çalışıb. Görüb-götürməkdən, oxuyub-öyrənməkdən yorulmazdı, kitab-dəftərdən, biliklər əxz etməkdən yalnız əlinə silah alıb Vətən torpaqlarını qorumaq naminə ayrıla bilərdi. Həmin məqsədlə də 2014-2015-ci illərdə Silahlı Qüvvələrimizdə müddətli həqiqi hərbi xidmətdə oldu. 2019-cu ildə yenidən Azərbaycan Memarlıq və İnşaat Universitetində doktorantura təhsilinə başladı. 2020-ci il sentyabrın 27-də rəşadətli ordumuz işğaldakı ərazilərin azadlığı uğrunda savaşa qalxanda könüllü olaraq Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa döyüşlərinə qatıldı.

Valideynləri Vaqif müəllim ali məktəb, Xatirə xanım ibtidai sinif müəllimləridir. Yarımçıq qalan arzularının başa çatdırılmasını (təbii ki, bəziləri heç mümkün də deyil) onlara, bir də qardaşı, artıq ailənin yeganə övladı Elşənə əmanət edib getdi...

"Elçin bacarıqlı, işgüzar, zəhmətkeş böyümüşdü, hər yerdə özünə hörmət qazanar, hər sözünün, hərəkətinin yerini bilərdi. Ən böyük arzusu işğalda olan torpaqlarımızın azadlığı idi. Ona görə də ilk gündən döyüşə atıldı. "İndi bu savaşa az da olsa, töhfə verməyin xoşbəxtliyini yaşayıram" söylərdi dostlarına, yaxınlarına... Oğul dağı çox ağırdır, amma hamı kimi, bizim də təsəllimiz cənab Prezidentin müdrik və qətiyyətli siyasəti, xalqın igid övladlarının canını, qanını əsirgəməməsi sayəsində torpaqlarımızın yağı tapdağından qurtuluşu, həmin ərazilərdə aparılan tikinti-quruculuq-bərpa işləri, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışıdır. Deməli, itkilərimizin qat-qat layiqli əvəzi var" - dərindən köks ötürərək deyir professor Vaqif Həsənov.

Şəhidin anası Xatirə İsmayılova evdəki tariximiz, yaxın keçmişdəki faciələr, riyakar dünyanın ikili standartları ilə bağlı söhbətləri xatırlayır, Xocalı genosidini heç cür unuda bilmədiklərini söyləyir: "Bütün vücudumuzla, ruhumuzla yaşamışıq bu soyqırımı. Vətənə, xalqa çox bağlı övlad idi, deyirdi, vuruşub torpaqlarımızı almalıyıq. Mübariz İbrahimovun qəhrəmanlığı sanki zəlzələ misallı oldu, silkələdi, oyatdı bizi. Hətta oğullarımız gedib şəhid olsun, amma işğaldakı torpaqlarımız azadlığa qovuşun - deyə ürəyimdən keçirdi. General Polad Həşimov şəhadətə yetişəndə gedib könüllü orduya yazılanlar çox oldu. İnanırsız, düşündüm ki, görəsən Elçin də müraciət edib? Bir gün dedi, ana, səfərbərlik idarəsinə getmişdim, qeydiyyata aldılar, müharibə başlasa hazıram. Sevindim... Və qəfil zəng yetişdi. Gecə getmək istəyirdi. Dedim ki, belə vaxtsız hara gedirsən? Dinmədi, mən bilirdim, bu nə gedişdir. Yatmadı, bütün gecəni otaqda fırlandı. Su içmədi, çörək kəsmədi, güclə açdı sabahı. Maşın gələndə tələsik geyinib aşağı düşdü. Sonuncu dəfə çevrilib mənə baxdı. Elə qəribə baxdı ki... Bunun ayrılıq olduğu ürəyimə damdı..."

Noyabrın 8-də Elçin Şuşa döyüşlərində, qala-şəhərimizin azadlığı uğrunda canını qurban verdi. Ölümüylə də neçə dostunu xilas etdi. Düşmən postlarını alaraq irəli şığıyan əsgərlərimiz yataq kisəsində gizlənən, arxadan atəş açmaq istəyən ermənini görmürlər. Elçin görür, özünü onun üstünə atır, şəhidlik zirvəsinə yüksəlir... Azərbaycanın igid oğlu Xırdalandakı Şəhidlər xiyabanında uyuyur.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Qurban MƏMMƏDOV*

## Əməkdaşlıq əlaqələri genişləndirilir

**Azərbaycan və Tacikistan respublikaları arasında 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən iki ölkənin Hərbi Hava Qüvvələrinin nümayəndələri arasında görüş keçirilib.**

Görüşdə qonaqlara Hərbi Hava Qüvvələrinin tarixi və fəaliyyəti haqqında geniş brifinq təqdim olunub. Qırx dörd günlük Vətən müharibəsində Hərbi Hava Qüvvələrinin rolu haqqında məlumat verilib, pilotsuz uçuş aparatlarından istifadəyə dair fikir mübadiləsi aparılıb. Eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Plana uyğun olaraq, Tacikistan nümayəndə heyəti Hərbi Hava Qüvvələrinin hərbi hissələrini və hərbi təhsil müəssisələrini ziyarət edib. Tacikistanlı qonaqlara Azərbaycan Ordusunun arsenalında yer alan bəzi pilotsuz uçuş aparatları əyani olaraq göstərilib, qurğuların taktiki-texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

## Hərbi qulluqçumuz "Afrika Aslanı-2024" təlimində iştirak edib

**Mərakeşin Aqadir şəhərində keçirilən "Afrika Aslanı-2024" beynəlxalq hərbi təlimlərinin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Ordusunun hərbi qulluqçusu iştirak edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, kompüter dəstəkli komanda-qərargah və döyüş atışlı mərhələlərdən ibarət olan təlimlərdə terror qrupları ilə mübarizə əməliyyatlarına dair müxtəlif tapşırıqlar icra edilib.

Qeyd edək ki, 20-ci dəfədir keçirilən təlimlərin başlıca məqsədi regional sülhü, eləcə də beynəlxalq təhlükəsizlik və sabitliyi dəstəkləməkdir.



## Şəhid Mahsun Bağırzadənin xatirəsi yad edilib

**Vətən, torpaq naminə həyatlarını qurban verən bütün şəhidlərimizin xatirəsi qədirbilən xalqımız tərəfindən həmişə əziz tutulur. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Lənkəran Regional Elmi Mərkəzinin (REM) əməkdaşı Mahsun Zahir oğlu Bağırzadə də belələrindəndir.**




Mahsun 30 may 1998-ci ildə Lənkəran rayonunun Xanbulan qəsəbəsində zəhmətkeş ailədə doğulub. İkinci Qarabağ müharibəsi başlananda sentyabrın 28-də könüllü olaraq cəbhəyə gedib. Onun şərəfli döyüş yolu Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarından keçib. 2020-ci il oktyabr ayının 22-də Qubadlı rayonunun "Yazı düzü" adlanan ərazisində qəhrəmanlıq nümunəsi göstərərək şəhidlik məqamına yüksəlib. 4 noyabr 2020-ci il tarixdə doğulduğu qəsəbənin Pir Yaqub ziyarətgahında torpağa tapşırılıb.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə M.Bağırzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Mahsun Bağırzadənin cənnətdəki mövludu - 26 yaşı doğulub boya-başa çatdığı Xanbulan qəsəbəsində, o cümlədən əməkdaşı olduğu Lənkəran REM-də ehtiramla, dərin hüznlə qeyd edilib. Mərkəzin foyesində şəhidin yenilənən xatirə guşəsinin açılış mərasimi keçirilib.

İştirakçıları salamlayan mərkəzin direktoru Mehman Qaraxan oğlu Əliyev 30 illik Vətən, torpaq və yurd həsrətimizə son qoyan, bükülmüş qamətimizi dikəldən şəhidlərimizə əbədi borcumuzun olduğunu, Mahsun Bağırzadənin ailəsinin həmişə dövlətimizin, o cümlədən AMEA rəhbərliyinin, mərkəzin diqqət və qayğısı ilə əhatə edildiyini söyləyib. 4 may 2024-cü il tarixdə Mahsunun və döyüş yoldaşlarının şəhid olduğu müqəddəs torpaqlarımıza - Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıya etdikləri səfərləri barədə məlumat verən mərkəzin direktoru xatirə guşəsinin AMEA rəhbərliyinin maddi və mənəvi dəstəyi ilə yeniləndiyini bildirib, mərkəzə ilk dəfə qədəm qoyan hər kəsin guşənin önünə gül dəstələri düzdüyünü diqqətə çatdırıb.

Mərasimə səhər saatlarında qatılan şəhid ailələrinin bir qrupu - Astara rayonunun Əzərüd kəndindən əfsanəvi Aprel şəhidi Pəncəli Teymurovun anası Vahimə xanım və şəhidin qardaşı Famil müəllim, Lənkəran rayonunun Şağlaser kəndindən şəhid Murad Hüseynzadənin valideynləri Mahmud kişi və Nazilə xanım, Lənkəran şəhərindən şəhid Orxan Quluzadənin valideynləri Elxan kişi və Fatma xanım, Lənkəran rayonunun Şıxəkəran kəndindən Mahsunun döyüş yoldaşı və dostu, şəhid Murad Abbasovun valideynləri Vasif kişi və Mənsurə xanım xatirə guşəsini ziyarət edib, önünə qərənfil dəstələri düzüblər.

Bakıdan gələn qonaqlar - AMEA Azad Həmkarlar İttifaqı Komitəsinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Sənan Həsənov, HİK sədrinin müavini Şəhla Əmirova, Zəngəzur Cəmiyyətlər İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlu, AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı, AMEA Tarix və Etnologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru İlham Həsənov, axund Mirbaba Tahirov, rayonun ictimaiyyət nümayəndələri və Mərkəzin kollektivi yenilənən guşənin önünə qərənfillər düzüb, Mahsunun xatirəsini yad edib, ruhuna dualar oxuyublar.

*Ağaddin BABAYEV,*
*Lənkəran*

# Bakıda Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsinin açılış mərasimi olub





İyunun 3-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Mədəniyyət Nazirliyi və Bülbül Beynəlxalq Fondu tərəfindən keçirilən Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsinin açılış mərasimi olub.





AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Bakıda, Bülbül prospektində görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün xatirəsinə ucaldılmış abidənin önünə əklil qoyub, gül dəstələri düzüblər.

Açılış mərasimində görkəmli bəstəkar və müğənni, Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlu çıxış edərək Bülbülün irsinin və məktəbinin yaşayaraq inkişaf etdiyini söyləyib. "Mən buna çox sevinirəm. Bu müsabiqə uzun illərdir təşkil edilir və bu gün doqquzuncu dəfədir keçirilir. Mən 1997-ci ildə bu müsabiqənin təşkili, keçirilməsi haqqında fərman imzalayan və o vaxtdan müsabiqəyə həm də bütün dünyada böyük nüfuz qazandıran Ümummilli Lider Heydər Əliyevi minnətdarlıqla xatırlamaq istərdim", - deyə Polad Bülbüloğlu əlavə edib.

Onun sözlərinə görə, vokalçıların Bülbül adına müsabiqəsi iki-üç ildən bir keçirilir, çünki yeni nəsil vokalçılar yetişməlidir və bu amil həmişə yüksək keyfiyyətin təminatı olub.

Müsabiqənin münsiflər heyətinin tanınmış üzvlərindən bəhs edən Polad Bülbüloğlu məşhur Qlinka müsabiqəsinə rəhbərlik etmiş, professor və müəllim kimi çoxsaylı layiqli vokalçılar yetişdirmiş rusiyalı opera müğənnisi İrina Konstantinovna Arxipovanı qeyd edib. "Həmçinin müsabiqənin münsiflər heyətinin sədri dünyaşöhrətli müğənni, Qlinkanın "Ruslan və Lyudmila" operasında ecazkar Ruslan obrazını yaratmış, eləcə də uzun illər Böyük Teatrda bir çox başqa rolları ifa etmiş Yevgeni Nesterenko olub. O, ölkənin ən yüksək tituluna - SSRİ Xalq artisti adına layiq görülüb, Moskva Konservatoriyasının professoru olub və vokalçı kimi də bu sənətin incəliklərinə yaxşı bələd idi. Həm də bir çox fəxri adlar daşıyan, vokalçıların Bülbül adına Beynəlxalq Müsabiqəsinin münsiflər heyətinin üç dəfə sədri olmuş Sergey Leyferkusu qeyd etmək istərdim. Amma bu gün artıq dünyasəviyyəli Azərbaycan müğənniləri yetişib, məncə, onlar bu müsabiqəyə rəhbərlik etməyə layiqdirlər. Müsabiqə həmişə Azərbaycanda, Bakı şəhərində keçirilib, amma münsiflər heyətimizin hər zaman beynəlxalq tərkibi olub. Ancaq bu gün ilk dəfədir ki, müsabiqənin münsiflər heyətinin sədri Azərbaycanın Xalq artisti, dünyanın demək olar ki, bütün görkəmli opera teatrlarını fəth etmiş dünyaşöhrətli şəxsiyyətdir. Bu, Yusif Eyvazovdur", - deyən Polad Bülbüloğlu, eyni zamanda müsabiqənin ilk günündən bu günə kimi təşkilatçısı olmuş Fərhad Bədəlbəylinin gənc musiqiçiləri yeni yaradıcılıq nailiyyətlərinə ruhlandıran vazkeçilməz müəllim olduğunu bildirib.

Xalq artisti, mədəniyyət nazirinin müavini Murad Hüseynov vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsini çox önəmli hadisə kimi qiymətləndirib:

"Böyük xanəndə, Azərbaycan milli opera sənətinin banisi, görkəmli Bülbülün adını daşıyan bu müsabiqə çox həyəcanverici hadisədir, onun açılışı tarixi bir gündür. Bu müsabiqə uzun müddətdir ki, dünya səviyyəsində ən populyar və sevimli yarışmalardan birinə çevrilib. Bu gün bu müsabiqə laureatları dünyanın ən tanınmış səhnələrində çıxış edir və opera sənətinin təbliği üçün çox işlər görürlər. Böyük xanəndə Bülbülün adı dünya musiqi mədəniyyəti tarixinə qızıl hərflərlə yazılıb. Görkəmli xanəndə Azərbaycan milli sənətinin yayılması və təbliği istiqamətində çox işlər görüb, öz məktəbini yaradıb", - deyə Murad Hüseynov əlavə edib.

Nazir müavini xatırladıb ki, bu gün müsabiqənin münsiflər heyətinin sədri olan Yusif Eyvazov vaxtilə Bakıda vokalçıların Bülbül adına VI Beynəlxalq Müsabiqəsinin qalibi olub.

"Hər kəsə böyük yaradıcılıq uğurları arzulayıram, əminəm ki, bütün əvvəlki müsabiqələr kimi, bu müsabiqə də ölkəmizdə keçirilən unudulmaz beynəlxalq musiqi tədbiri kimi tarixə düşəcək", - deyə Murad Hüseynov əlavə edib.

Münsiflər heyətinin sədri olmaq şərəfinə layiq görüldüyü üçün təşkilatçılara təşəkkür edən Azərbaycanın Xalq artisti, Dövlət Akademik Opera və Balet Teatrının direktoru Yusif Eyvazov müsabiqə iştirakçılarına uğurlar arzulayıb: "Müsabiqə həmişə çox vacib bir hadisədir. İstəyirəm ki, bu gün burada iştirak edən gənc artistlər başa düşsünlər: əgər sənə heç bir müsabiqədə qalib gəlmək və ya üçüncü tura keçmək nəsib olmayıbsa, bu, qətiyyən karyera qura bilməyəcəyin və ya qalib gələnlərdən daha pis olduğun anlamına gəlməz. Sadəcə olaraq, səhnəyə çıxıb oxuduğun anda qalib olmaq üçün lazım olan səviyyədə və yüksəklikdə olmamısan. Ona görə də narahat olmayın, çalışmağa davam edin və ən əsası, səsinizlə münsiflər heyətini təəccübləndirməyə çalışın. Biz isə qalibləri və finalçıları çox dürüst və düzgün seçəcəyik. Qoy bir "ulduz" doğulsun!", - deyə Yusif Eyvazov vurğulayıb.

Sonra müsabiqənin dinləmələrinə start verilib.

Qeyd edək ki, 150-dən çox vokalçının qələbə uğrunda yarışacağı müsabiqədə 18-36 yaş arasında ifaçılar iştirak edir. Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Cənubi Koreya, Makedoniya və digər ölkələrdən olan vokalçılar bir həftə ərzində Bülbül adına müsabiqənin mükafatları uğrunda məharətlərini göstərəcəklər. Müsabiqənin baş mükafatının məbləği 10 min ABŞ dolları, birinci yer üçün mükafat 7 min dollar, II və III yerlər üçün mükafatların məbləği isə müvafiq olaraq 5 və 3 min dollardır.

Qaliblərin mükafatlandırılması və onlarla birlikdə dəvətli vokalçıların da çıxış edəcəyi qala-konsert iyunun 9-da Bülbülün doğma şəhəri Şuşada təşkil olunacaq.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.06.24-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# "Qarabağ" Azərbaycan Kubokunun qalibi olub

## Ağdamlılar titul sayında Azərbaycan rekordunu yeniləyib





Azərbaycan futbolunda mövsümün son oyunu keçirilib. "Liv Bona Dea Arena"da keçirilən ölkə kubokunun final matçında "Qarabağ" və "Zirə" komandaları üz-üzə gəlib. Görüş Ağdam təmsilçisinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Hesabı 42-ci dəqiqədə Olavio Juninyo açıb. 57-ci dəqiqədə İsmayıl İbrahimli hesabı bərabərləşdirib. "Qarabağ"a kuboku qazandıran qola 62-ci dəqiqədə Abdullah Zubir imza atıb.

Bununla da Ağdam klubu 8-ci dəfə Azərbaycan Kubokunun qalibi olub.

"Mövsümü çox maraqlı başa vurduq. Ölkə kubokunun finalı da möhtəşəm alındı". Bu sözləri "Qarabağ" komandasının baş məşqçisi Qurban Qurbanov oyundan sonra təşkil olunan mətbuat konfransında deyib.

Mütəxəssis qarşılarında istəkli komandanın olduğunu bildirib: "Zirə"ni bütün mövsüm ərzindəki performansına görə təbrik edirik. Futbolçularıma gəlincə, onlarla qürur duyuram. Uğur qazandığın zaman arxayınlıq olur. Lakin çalışacağıq bunun qarşısını alaq".

Baş məşqçisinin dediyinə görə, "Zirə"nin büdcəsi "Qarabağ"la eyni səviyyədə olmasa da, rəqib böyük işlər görüb: "Həqiqətən yaxşı mövsüm keçirdilər. Düşünürəm ki, bu cür büdcə ilə mübarizə aparmaqları bir növ bizə qalib gəldiklərini göstərir".

Qurban Qurbanov bu gün karyerasını başa vuran Maksim Medvedevin gələcəyi ilə bağlı qarşıdakı günlərdə qərar verəcəyini vurğulayıb: "Maksimin Azərbaycan futboluna böyük xidmətləri olub. Onunla bu barədə danışmışdıq. Ona gələcək karyerasında uğurlar arzulayıram".

53 yaşlı çalışdırıcı sabiq futbolçusu Kadi Borgesin "Qarabağ"a qayıtmaq ehtimalından danışıb: "Məncə, o da bura geri dönmək istəyər. Əlbəttə, bunu biz də istəyirik".

Q. Qurbanov Aleksey İsayev və Nəriman Axundzadənin oyunundan razı qaldığını söyləyib.

"Altıncı dəfə mövsümü "qızıl dubl"la bitirdik. Gözəl hisslərdir".

Bu sözləri "Qarabağ" komandasının prezidenti Tahir Gözəl Azərbaycan Kubokunun qalibi olmaqları barədə danışarkən deyib.

Funksioner gözəl oyuna görə "Zirə"ni təbrik edib: "Rəşad Sadıqov çox yaxşı əzmkar komanda formalaşdırıb. Biz də fantastik mübarizə apardıq. Futbolçularımla qürur duyuram. Növbəti hədəf Çempionlar Liqasında Azərbaycanı layiqincə təmsil etməkdir".

"Qarabağ" 8-ci dəfə ölkə kubokunu qazanmaqla, həm də 6-cı "Qızıl dubl"una imza atıb. Hər iki göstəricidə özünün sahib olduğu rekordu yeniləyən Ağdam təmsilçisi tarixində yubiley titulunu əldə edib. Hesabında 11 çempionluq və 8 kubok olan "Qarabağ" 1993-cü ildə Superkuboka da sahib çıxıb. Ağdamlılar titul sayında da Azərbaycan rekordunu yeniləyiblər.

***Rizvan HİLALOĞLU, "Azərbaycan"***

# Bu həftəsonu Şamaxıda Hava Şarları Festivalı keçiriləcək

İyunun 8-9-da Şamaxıda növbəti Hava Şarları Festivalı (Balloon Festival) keçiriləcək.




AZƏRTAC xəbər verir ki, Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "EZONE" şirkəti tərəfindən təşkil olunacaq Hava Şarları Festivalının əsas məqsədi ölkəmizin, o cümlədən festivalın keçirildiyi Şamaxı rayonunun turizm potensialına töhfə verməkdir.

İyunun 8-i və 9-da səhər saatlarında (saat 05:00-08:00 aralığında) baş tutacaq uçuşlar zamanı Şamaxının Meysəri kəndi üzərindən səmaya müxtəlif rəng, forma və dizaynda hava şarları qalxacaq. Bu mənzərə izləyicilərə unudulmaz təəssüratlar vəd edir. Hava şarlarında turistik uçuşlar hələ ki, həyata keçirilmir. Lakin yerli pilotların beynəlxalq mütəxəssislərlə birgə reallaşdıracağı nümayiş uçuşlarını Meysəri kəndi ərazisindən hər kəsin seyr etmək imkanı olacaq.

"iTicket.az" saytı vasitəsilə qeydiyyatdan keçən şəxslər isə Meysəri kəndindəki "Şirvan Şərabları" kompleksi ərazisində rəngarəng əyləncə və konsert proqramını da izləyə biləcəklər.

Xatırladaq ki, Şamaxıda ilk Hava Şarları Festivalı ötən ilin iyununda keçirilib. Festival ilk dəfədən böyük marağa səbəb olub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Çingiz Qənizadəyə anası

**GÜLÇÖHRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı

**ƏHMƏD BALAQADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Simran və Söhrab Həsənovlar Milli Məclisin sabiq deputatı Çingiz Qənizadəyə anası

**GÜLÇÖHRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rafiq Aslanov və Zakir Quliyev Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı

**ƏHMƏD BALAQADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi

**RAMİN VƏLİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən Cavanşir Yusifov və Fazil Fərəcov Səxavəddin Abdullayevə qardaşı

**ŞƏRAFƏDDİN MUSTAFA OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4510
Sifariş 1222

Qiyməti 60 qəpik